D İ Q Q Ə T !

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*

***QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**

# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 189 (6153) **24 oktyabr** 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Prezidentdən xalqımıza növbəti qələbə müjdəsi!

## *İlham Əliyev: Azərbaycan Ordusu Xocavəndin 2, Cəbrayılın 5, Zəngilanın 2 kəndini, Qubadlının 4 kəndini işğaldan azad edib*

**Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır! AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.**

* * * *

**Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

**AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.**



## Mehriban Əliyeva: Pandemiyaya qarşı müharibə hələ davam edir



*Bax 3*

Biz bu günədək vaxtında və hərtərəfli düşünülmüş tədbirlər sayəsində dünyanın bir çox ölkələrinin üzləşdiyi faciəli ssenaridən xilas ola bilmişik. Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər...

## Hikmət Hacıyev BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair müzakirələrini şərh edib



İyirmi beş illik fasilədən sonra BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 29 sentyabr və 19 oktyabr tarixlərində müzakirələr keçirilib. AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi - Prezident Administrasiyasının ...

*Bax 3*



## "Vaxtında görülən sanitariya və epidemioloji tədbirlər koronavirusun yayılma sürətini xeyli azaltdı"

Oktyabrın 23-də Şanxay Əməkdaşlıq Təşkilatının "İnsanlar üçün iqtisadiyyat" mövzusunda videokonfrans formatında Beynəlxalq Partiyalararası Forumu keçirilib. SİA-nın verdiyi məlumata görə, Forumu giriş sözü ilə açan Rusiya Federasiyası Dövlət Dumasının Sağlamlıq qorunması üzrə komitəsinin sədri Dmitri Morozov mövzunun aktuallığından danışıb...

*Bax 4*

## Həmsədr ölkələrin fiaskosu: İlham Əliyevin növbəti diplomatik qələbəsi

25 illik susqunluqdan sonra BMT Təhlükəsizlik Şurası sanki yuxudan ayılıb, qeyri-adekvat müraciətlər, müəmmalı qərarlar, lazımsız qətnamələr...

*Bax 6*



## Ceyhun Bayramov ABŞ Dövlət katibi Mayk Pompeo ilə görüşüb



*Bax 3*

*Oktyabrın 23-də ABŞ-a işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibi Mayk Pompeo ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsində son vəziyyətlə bağlı müzakirə aparıb, Ermənistan tərəfinin destruktiv*

## "Paşinyan bu addımları ilə danışıqlar prosesinin mənasızlığını ortaya qoyur"



*Bax 12*

## Erməni mayordan ermənilərə müraciət: "Uşaqları Qarabağa döyüşməyə buraxmayın"



*Bax 12*

## 24 oktyabr böyük dramaturq Hüseyn Cavidin doğum günüdür



*Bax 7*

# Ən çətin anların sınağından çıxan qardaşlıq birliyi

## *İlham Əliyev: “Bütün dünyaya göstərdik ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq”*



Azərbaycan-Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “Bir millət, iki dövlət” tezisinə əsaslanır. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

Sözsüz ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq. Qeyd edək ki, Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Belə ki, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: “Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır”. Anadoluda Qazi Mustafa Kamal Atatürkün önderliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Bu gün isə Ermənistanın təcavüzkar siyasətinə qarşı mübarizəsində Türkiyə qardaş dövlətin Azərbaycanla həm cəbhədə, həm də diplomatik səviyyədə mübarizədə yanında olması bu qardaşlığın daha möhkəm olduğunun göstəricisidir.

### Prezident İlham Əliyev: “Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu”

Prezidenti İlham Əliyev Türkiyənin “Haber Türk” televiziya kanalına müsahibəsində Azərbaycanın ən çətin günündə Türkiyə dövlətinin misilsiz dəstəyinin olduğunu deyərək bildirib ki, bu iş bitsin, ərazi bötgvlüyü bərpa edilsin qardaş dövlətimiz arasında yeni dövr başlayacaq: “Qoy, bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq”.

“Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu”,- deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, çoxları bunu anlamırlar: “Bəziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı. Bəlkə də başqa kimsə burada, necə deyərlər, bulanıq suda balıq tutmağa çalışacaqdı. Ona görə bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik”. Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti.

### Rəcəb Tayyib Ərdoğan: “Ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, kar, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür”

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisinin (TBMM) iclasında Azərbaycan torpaqlarına Ermənistanın təcavüzü barədə danışarkən bildirib ki, ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, kar, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür: “İşğalçılara səssiz qalan, vətənini qoruyanı isə suçlayanların sözünün bizim üçün heç bir dəyəri yoxdur. Bu alçaq oyun pozulur. Qalıcı sülhün yolu Ermənistanın işğal etdiyi hər qarış Azərbaycan torpaqlarından geri çəkilməsindən keçir”.

Türkiyə Prezidenti bir daha Azərbaycanın yanında olduqlarını bildirmək istərdim. Türkiyə bu günə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın yanında olacaq. TBMM olaraq Azərbaycanın yanında olduğumuz bir daha bildirildi. Ermənistan işğal etdiyi ərazilərdən çıxarılmalıdır”.

Bəli, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Prezident İlham Əliyev oktyabrın 22-də Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçu qəbul edərək qonağı salamlayıb və bildirib ki, indiki şəraitdə sizin Azərbaycanda olmağınızın xüsusi mənası var: “Bildiyiniz kimi, Ermənistan Azərbaycana qarşı növbəti təcavüz aktı törədib, növbəti terror aktı törədib. Həm bizim mülki vətəndaşlara, həm də hərbçilərimizə qarşı hərbi cinayət törədib. Bilirəm ki, siz səfər çərçivəsində Gəncə şəhərinə gedəcəksiniz. Orada özünüz görəcəksiniz ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Onlar döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmirlər və çalışırlar ki, bu acı məğlubiyyətin əvəzini dinc insanlardan çıxsınlar. Gəncəyə iki namərd hücum və Gəncə şəhərinin ballistik raketlərlə vurulması hərbi cinayətdir. Ermənistan rəhbərliyi bu cinayətə görə cavab verəcək. Bu, qəsdən törədilmiş cinayətdir. Məhz mülki əhalinin yaşadığı yerləri məqsədyönlü şəkildə atəşə tutublar. Bildiyiniz kimi, çoxlu itkilərimiz var, yaralılarımız var, o cümlədən uşaqlar, qadınlar, qocalar. Bu, bir daha erməni faşizminin yırtıcı mahiyyətini göstərir. Bu, bir daha göstərir ki, biz erməni faşizminin belini qırmaqla bölgəmizi böyük bəladan, böyük faciədən xilas etmiş oluruq”.

### “Bir daha bütün dünyaya göstərir ki, Ermənistan dünya üçün böyük təhlükədir”

Dövlət başçısı bildirib ki, bizim bütün cəbhəboyu şəhərlərimiz və kəndlərimiz hər gün atəşə tutulur: “Bu gün mənə verilən məlumata görə, səhər saat 6-dan 8-ə qədər təkcə Tərtər rayonuna 190 mərmi düşüb. Ağdam rayonuna 90-dan çox mərmi düşüb. Elə günlər var idi ki, Tərtər rayonuna 2 min mərmi düşüb. Yəni, onlar bizim şəhərlərimizi dağıtmaq istəyirlər, Azərbaycan xalqının iradəsini qırmaq istəyirlər. Ancaq buna nail ola bilmirlər və daha da çox azğınlaşırlar. Biz intiqamımızı döyüş meydanında alırıq. Biz heç zaman mülki əhaliyə qarşı heç bir addım atmamışıq və atmayacağıq. Baxmayaraq ki, onlar bizim qədim tarixi şəhərimizi - Gəncəni atəşə tuturlar, biz nə Ermənistan şəhərlərini, nə də ki, Dağlıq Qarabağda yerləşən şəhərləri atəşə tutmuruq və tutmayacağıq. Bizim üstünlüyümüz, bax, bu mənəvi dəyərlər çərçivəsində də bir daha özünü büruzə verir və bir daha bütün dünyaya göstərir ki, Ermənistan dünya üçün böyük təhlükədir. Ermənistanda hökm sürən kriminal faşist rejimi bölgəmiz üçün ən böyük təhdiddir və Azərbaycan bu təhdidin aradan qaldırılması üçün əlindən gələni edir. Hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün yeni şəhərləri, kəndləri işğalçılardan azad edirik. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını icra edir”.

### “Azərbaycanın haqq işi Türkiyə mətbuatı vasitəsilə dünyaya çatdırılır. Bunun da çox böyük önəmi var”

Azərbaycan Prezidenti onu da bildirib ki, belə bir çətin anlarda Türkiyə həmişə Azərbaycanla bir olduğunun göstərib: “Sizin bu gün Azərbaycanda olmağınızın çox böyük mənası var. Bildiyiniz kimi, qardaş Türkiyə ilk saatlardan bizə öz dəstəyini göstərmişdir. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan, mənim əziz qardaşım ilk saatlardan bildirmişdir ki, Türkiyə Azərbaycanın yanındadır. Türkiyənin digər yüksək vəzifəli şəxsləri də buna oxşar bəyanatlar vermişlər. Türkiyə xalqı bizə öz dəstəyini göstərir. Türkiyə mətbuatında bu münaqişə geniş işıqlandırılır. Azərbaycanın haqq işi Türkiyə mətbuatı vasitəsilə dünyaya çatdırılır. Bunun da çox böyük önəmi var. Çünki əfsuslar olsun ki, bir çox ölkələrin mətbuatı birtərəfli qaydada Ermənistanın tərəfini tutur. Bu, böyük ədalətsizlikdir. Bu, saxtakarlıqdır. Bu, hadisələrin təhrifi deməkdir. Azərbaycanı işğalçı, yaxud da ki, təcavüzkar dövlət kimi təqdim etmək cəhdləri, əlbəttə, heç bir əsasa malik deyil. Ona görə, Türkiyə mətbuatının ilk günlərdən burada olması və döyüş bölgələrindən reportajların verilməsi dünyada da bu məsələ ilə bağlı düzgün məlumatın olmasına xidmət göstərir”.

### “İşğaldan azad edilmiş şəhər və kəndlərimizin mənzərəsi göstərir ki, biz hansı vəhşilərlə üz-üzəyik”

“Bu gün işğaldan azad edilmiş şəhərlərin, kəndlərin mənzərəsi göstərir ki, biz hansı vəhşilərlə üz-üzəyik”,- deyən dövlət başçısı bildirib ki, o şəhərlərdə, o kəndlərdə, onların böyük əksəriyyətində bir dənə də salamat bina qalmayıb: “Füzuli şəhərini tamamilə dağıdıblar. Bir salamat bina tapa bilmədik ki, orada Azərbaycan bayrağını qaldıraq və nəhayət, bu mərasim də keçirildi. Bütün kəndlərimizdəki binalar dağıdılıb, məscidlərimiz dağıdılıb. Dünən internetdə Zəngilanın bir kəndində dağılmış məscidin görüntülərini bütün dünya gördü. O məsciddə donuzlar saxlayıblar. Bizim məscidlərimizi təhqir ediblər. Bizim bütün tarixi abidələrimizi dağıdıblar. Evlərdən demək olar ki, yalnız daşlar qalıb”.

“Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində xaricdən gələn dəstək hesabına onlar bizim torpaqlarımızı zəbt ediblər”,-deyən Azərbaycan Prezidenti bir daha bildirib ki, indiki şəraitdə də qardaş Türkiyə bizimlədir: “Buna baxmayaraq, biz bu çirkin rejimin belini qırırıq, qıracağıq. Haqq işimizi davam etdiririk, Türkiyə kimi qardaş ölkə yanımızdadır, hər zaman birlikdəyik!”

### Şərəf Malkoç: “Sizin bu gün apardığınız mübarizə bir haqq mübarizəsi, hüquq mübarizəsidir, insan haqları sahəsində bir mübarizədir - öz vətəninizdən işğalçıları qovmaq!”

Türkiyənin Baş Ombudsmanı Şərəf Malkoç bildirib ki, Azərbaycanın apardığı mübarizə haqq mübarizmsidir: “Sizin bu gün apardığınız mübarizə bir haqq mübarizəsi, hüquq mübarizəsidir, insan haqları sahəsində bir mübarizədir - öz vətəninizdən işğalçıları qovmaq. Bu, beynəlxalq hüququn da, insan vicdanının da, insan əxlaqının da ən təbii və doğru haqqıdır”.

Şərəf Malkoç, həmçinin deyib ki, Azərbaycan torpaqları 30 ildir işğal altındadır və haqlı olaraq öz torpaqlarını işğaldan azad etməlidir: “Bütün danışıqlara baxmayaraq, 30 il boyunca irəliləyiş olmadı. Ona görə Sizin bu gün apardığınız mübarizə bir haqq mübarizəsi, hüquq mübarizəsidir, insan haqları sahəsində bir mübarizədir - öz vətəninizdən işğalçıları qovmaq. Bu, beynəlxalq hüququn da, insan vicdanının da, insan əxlaqının da ən təbii və doğru haqqıdır. Siz bunu qeyri-adi dərəcədə gözəl həyata keçirirsiniz. Sizin hər axşam neçə kəndin, neçə şəhərin işğaldan azad edildiyi barədə açıqlamalarınız bütün Türkiyədə insanların könlünə fərəh, sevinc gətirir”.

Bir sözlə, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan və Türkiyə münasibətləri dayanmadan inkişaf edir, əməkdaşlığın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir.

**RƏFİQƏ KAMALQIZI**

# Prezident Milli Qəhrəmanın atası ilə telefonla danışıb



Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Qəhrəman, Qubadlının azadlığı uğrunda şəhid olmuş Şükür Həmidovun atası Nəriman Həmidovla telefonla danışıb. SİA Prezidentin Mətbuat Xidmətinin məlumatına istinadən xəbər verir.

Dövlətimizin başçısı Şükür Həmidovun həlak olması ilə bağlı başsağlığı verib, qeyd edib ki, Şükür Həmidov hələ Aprel döyüşləri zamanı göstərdiyi şücaətə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş və Azərbaycan Prezidenti şəxsən özü ona qəhrəman ulduzunu təqdim etmişdi. Dövlətimizin başçısı qeyd edib ki, Şükür Həmidov bu dəfə Qubadlı rayonunun azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur. Prezident İlham Əliyev Şükürün doğulduğu və azadlığı uğrunda həlak olduğu Qubadlı rayonunda onun adının əbədiləşdiriləcəyini vurğulamışdır. Nəriman Həmidov dövlətimizin başçısına təşəkkürünü bildirərək Azərbaycan xalqının Ali Baş Komandan kimi onun ətrafında sıx birləşdiyini və bundan sonra da Azərbaycan Prezidentinə dəstək olacağına əminliyini ifadə edib. Prezident İlham Əliyev Nəriman Həmidovla görüşünü də xatırlayaraq ona Şükür kimi igid və vətənə sadiq övlad yetişdirdiyinə görə minnətdarlığını bildirib, Həmidovlar ailəsinin bütün yaxınlarına başsağlığı çatdırmağı xahiş edib.

# Mehriban Əliyeva: Pandemiyaya qarşı müharibə hələ davam edir



Biz bu günədək vaxtında və hərtərəfli düşünülmüş tədbirlər sayəsində dünyanın bir çox ölkələrinin üzləşdiyi faciəli ssenaridən xilas ola bilmişik. Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır.

Bunu Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva müsahibəsində deyib. Birinci vitse-prezident Mehriban Əliyeva bildirib ki, biz epidemiya ilə mübarizənin bütün aspektlərini koordinasiya edən peşəkar komanda yaratmağa, zəruri texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq: "Tətbiq edilmiş karantin tədbirləri koronavirusun yayılma sürətini azaltmağa kömək etdi. Biz birlikdə Vətənimizi bu xəstəliyin təhlükəli surətdə yayılmasından qoruya bildik.

Təəssüf ki, çoxsaylı ölkələrə və xalqlara bu qədər bəla və iztirab gətirmiş virusa hələ də qalib gəlmək mümkün olmayıb. O, hələ də ciddi təhlükə mənbəyidir, bütün dünyada pisləşməkdə olan statistika buna sübutdur. Pandemiyaya qarşı müharibə hələ davam edir. Avropa dövlətlərinin çoxunda çoxsaylı məhdudiyyətlər yenidən qüvvəyə minir.

Təəssüf ki, bizim ölkəmiz də istisna deyil. Məlumdur ki, son günlərdə yoluxanların sayının artması müşahidə olunur, təhsil müəssisələrində, ictimai nəqliyyatda yenidən bəzi məhdudiyyətlər tətbiq edilib.

Mən sizin hər birinizi koronavirusun təhlükəli olduğunu unutmamağa, aylarla riayət etdiyimiz elementar qaydaları gözləməyə, məsafəyə riayət etməyə, həqiqətən real zərurət olmadığı halda insanların kütləvi şəkildə toplaşdığı yerlərə getməməyə çağırıram. Bizə yaxşı məlum olan bütün bu qaydalar yoluxma riskini azaltmağa və deməli, bizi və yaxınlarımızı xəstəlikdən qorumağa kömək edər. Biz yaşlı nəslə həmişə xüsusi qayğı və hörmətlə yanaşırıq. Pandemiyanın birinci mərhələsi dövründə biz onları qayğı ilə qoruduq. Əminəm ki, indiki şəraitdə biz daha diqqətli olacağıq.

Bu gün, ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır. İndi bütün resursların bizim xilaskarlıq əməliyyatı üzərində cəmləşməsi müstəsna əhəmiyyət kəsb edir. Biz arxa cəbhədə öz sağlamlığımızın qeydinə qalmaqla, sayıqlıq və intizam nümayiş etdirməklə, eyni zamanda, ön cəbhədəki əsgərlərimizə kömək edir və onları qoruyuruq. Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!"

# Hikmət Hacıyev BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair müzakirələrini şərh edib



İyirmi beş illik fasilədən sonra BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 29 sentyabr və 19 oktyabr tarixlərində müzakirələr keçirilib. AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bu müzakirələr barədə məlumat verib.

Prezidentin köməkçisi deyib: "Təəssüf hissi ilə qeyd etmək istərdik ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğalı ilə əlaqədar 822, 853, 874 və 884 saylı dörd qətnaməsinin qəbul olmasına baxmayaraq, BMT TŞ-də Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar sonuncu müzakirələr 1995-ci ildə keçirilib.

BMT Təhlükəsizlik Şurasının qətnamələrində Ermənistanın Azərbaycana qarşı gücdən istifadə etməsi pislənilir, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu vurğulanır və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılması tələb olunur.

Oktyabrın 19-da BMT TŞ-də Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar keçirilmiş müzakirələrdən sonra Təhlükəsizlik Şurasının sədri adından bəyanat layihəsi hazırlanıb. Bəyanat layihəsində BMT TŞ-nin məlum qətnamələrinə istinad öz əksini tapmayıb. Sözügedən layihə əsasən Rusiya Federasiyası və Fransa tərəfindən hazırlanıb.

BMT TŞ-nin qeyri-daimi üzvləri olan və Qoşulmama Hərəkatının (QH) üzvü olan İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikası iki dəfə sükut prosedurunu pozaraq, BMT TŞ-nin qətnamələrinə istinadın bəyanata daxil edilməsinə israr ediblər. Bununla həmin dövlətlər BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT TŞ-nin qətnamələrinə, Bandunq prinsiplərinə, QH-nin sənədlərinə sadiqliyini növbəti dəfə nümayiş etdiriblər. Qoşulmama Hərəkatı üzv dövlətlərinin israrlı və prinsipial mövqeyindən sonra haqqında bəhs olunan bəyanat layihəsi rəsmən geri götürülüb.

Prezident İlham Əliyev İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikasına həmrəylik göstərərək ədalətli və prinsipial mövqelərinə görə təşəkkürünü ifadə edir. Bildirir ki, Qoşulmama Hərəkatının Sədri kimi 2019-cu ildə Bakıda keçirilmiş XVIII Zirvə toplantısında çıxışında dediyi kimi, bundan sonra da üzv dövlətlərin maraqlarını, beynəlxalq hüququ və ədaləti BMT-də və digər beynəlxalq təşkilatlarda müdafiə edəcək. Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyev bütün QH üzv ölkələrinə müraciət edərək Bandunq prinsipləri əsasında həmrəyliyə, birliyə və qarşılıqlı dəstəyə çağırır".

# Ceyhun Bayramov ABŞ Dövlət katibi Mayk Pompeo ilə görüşüb



Oktyabrın 23-də ABŞ-a işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibi Mayk Pompeo ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsində son vəziyyətlə bağlı müzakirə aparıb, Ermənistan tərəfinin destruktiv siyasəti, azərbaycanlı dinc əhalinin məqsədyönlü şəkildə atəşə tutulması, xaricdən muzdluların və terrorçuların kütləvi cəlb olunması və sair məsələlər barədə ətraflı məlumat verib. Nazir Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycanın haqlı mövqeyi BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsinə və digər beynəlxalq təşkilatların müvafiq sənədlərinə əsaslanır. Söhbət zamanı, həmçinin Azərbaycan-ABŞ ikitərəfli əlaqələrinə dair məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir




Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Düşmən müdafiə mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub. AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 23-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib. Ağcabədi rayonu və digər istiqamətlərdə uçuş keçirməyə cəhd göstərən düşmənin 3 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib, 2-si isə xüsusi texniki vasitələrlə yerə endirilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Döyüş texnikası, silah və sursat, ərzaq ehtiyatları azalan düşmən artıq qoşunlarını praktiki olaraq idarə edə bilmir. Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonlarından Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət də Azərbaycan əsgərləri ilə döyüşlərə girməkdən imtina edir, mövqeləri qoyub qaçır. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir. Düşmənin vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdləri də tam olaraq iflasa uğrayıb. Diqqətə çatdırılıb ki, bu gün Prezident, müzəffər Ali Baş Komandanımız İlham Əliyev özünün rəsmi "Twitter" hesabında qüdrətli Azərbaycan Ordusunun Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq, Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərinin işğaldan azad edildiyini bildirib. "Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun zəfər yürüşü davam edir. Qələbə bizimlədir!", - deyə Anar Eyvazov vurğulayıb.

# “Vaxtında görülən sanitariya və epidemioloji tədbirlər koronavirusun yayılma sürətini xeyli azaltdı”

## Əli Əhmədov Beynəlxalq Partiyalararası Forumunda iştirak edib






***Oktyabrın 23-də Şanxay Əməkdaşlıq Təşkilatının “İnsanlar üçün iqtisadiyyat” mövzusunda videokonfrans formatında Beynəlxalq Partiyalararası Forumu keçirilib. SİA-nın verdiyi məlumata görə, Forumu giriş sözü ilə açan Rusiya Federasiyası Dövlət Dumasının Sağlamlıq qorunması üzrə komitəsinin sədri Dmitri Morozov mövzunun aktuallığından danışıb. O, bu məsələdə Şanxay Əməkdaşlıq Təşkilatının rolunu vurğulayıb, o cümlədən siyasi partiyaların verə biləcəyi töhfələrdən bəhs edib.***

Daha sonra Rusiya Federasiyasının Səhiyyə naziri Mixail Muraşko, Qazaxıstan Respublikasının Səhiyyə naziri Aleksey Çoy, Çin Xalq Respublikasının Səhiyyə nazirinin müavini Yu Syejun çıxış edərək COVİD-19 infeksiyasının ölkələrin sosial-iqtisadi həyatına təsiri və pandemiya ilə mübarizə tədbirləri haqqında fikirlərini bildiriblər.

Forumda Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov “COVİD-19 pandemiyasının sosial-iqtisadi nəticələrinə və təhlükəli yoluxucu xəstəliklərin yayılmasına qarşı mübarizədə məsul siyasi partiyaların rolu” mövzusunda çıxış edib. Əli Əhmədov bu tədbirə dəvət üçün “Vahid Rusiya” Partiyasının rəhbərliyinə təşəkkür edib. O deyib ki, bu tədbirin Yeni Azərbaycan Partiyasının kifayət qədər aktiv tərəfdaşlıq münasibətləri qurduğu “Vahid Rusiya” Partiyasının vasitəçiliyi ilə keçirilməsi ona xüsusi əhəmiyyət və aktuallıq verir. Əli Əhmədov həmçinin, Azərbaycanın ŞƏT-in işində müşahidəçi qismində iştirak etdiyini diqqətə çatdırıb.

COVİD-19 pandemiyasının Azərbaycandan da yan keçmədiyi deyən Əli Əhmədov bildirib ki, təhlükəli xəstəliyin qarşısının alınması ilə əlaqədar ölkə rəhbərliyi vaxtında qabaqlayıcı tədbirlər həyata keçirdi: “Pandemiya başlayandan strategiyamız Ümumdünya Səhiyyə Təşkilatının bütün təlimatlarını məsuliyyətlə və səmərəli şəkildə həyata keçirmək və dünyada həm keçmişdə, həm də indiki dövrdə pandemiya ilə mübarizədə qazandığımız müsbət təcrübədən istifadə etmək idi. Təcrübə Azərbaycanda koronavirus pandemiyasına qarşı bu yanaşmanın müdrikliyini sübut etdi və sübut etməyə də davam edir. Vaxtında görülən sanitariya və epidemioloji tədbirlər koronavirusun yayılma sürətini xeyli azaltdı. Xarici sərhədlərin bağlanması ilə Azərbaycan bölgəmizdə ilk olaraq vətəndaşların hərəkətinə məhdudiyyət tətbiq etdi. Pandemiyaya qarşı mübarizə məqsədilə cəmiyyətin və dövlətin resurslarının səfərbər edilməsi kifayət qədər uğurlu hesab edilə bilər. Bütün yoluxmuş insanlar üçün əlverişli bir müalicə təmin etmək üçün çox iş başlatdıq. Bu işin aşağıdakı tərkib hissələrini qeyd etmək istərdim. Birincisi, ölkədə əhəmiyyətli bir hissəsi koronavirus xəstələrinin ehtiyaclarına həsr olunmuş müasir bir səhiyyə infrastrukturunun mövcudluğudur. İkincisi, ən qısa müddətdə iki min çarpayılı on modul xəstəxananın yaradılmasıdır. Koronavirus xəstələri ilə təmasda olan həkimlərin və səhiyyə işçilərinin əməkhaqları xeyli artırılıb”.

Əli Əhmədov qeyd edib ki, görülən profilaktik tədbirlər nəticəsində koronavirusla bağlı vəziyyət nəzarətdə saxlanıla bilər. Hal-hazırda Azərbaycanda koronavirus statistikası belədir: epidemiyanın başlanğıcından bəri 43.000 insan bu virusa yoluxub ki, onların da 40.000-i sağalıb. Xəstəlikdən vəfat edənlərin sayı isə 620 nəfərdir. Müqayisəli təhlil Azərbaycanda COVID-19 ilə mübarizənin müəyyən müsbət nəticələr verdiyini deməyə imkan verir. Beləliklə, dünyada bir milyon əhaliyə düşən infeksiya sayı 5 mindən çoxdur və Azərbaycanda bu rəqəm 4 mindən bir az çoxdur. Eləcə də, ölüm sayına gəlincə, dünyada hər milyon insana 132 ölüm düşür, Azərbaycanda isə bu göstərici 62-dir.

“Bütün ölkələrdə olduğu kimi, pandemiya da respublikamızın həyatında dərin sosial-iqtisadi nəticələrlə müşayiət olunur. İqtisadi cəhətdən inkişaf etmiş bir sıra ölkələrdə ÜDM-in on faiz və ya daha çox azalması fonunda bunun ən nikbin ssenarilərdən birini Azərbaycanda olduğunu deyə bilərik. Ancaq bu, koronavirusun iqtisadi və sosial nəticələrinə qarşı mübarizəyə diqqəti zəiflətmək üçün bir səbəb deyil. Bu sahədə Azərbaycan hökumətinin davranış modeli bir çox cəhətdən bir çox ölkənin hökumətlərinin fəaliyyəti ilə üst-üstə düşür. Bu model, birincisi, əhalinin, xüsusən onun yoxsul hissəsinə sosial dəstəyi, ikincisi, kiçik və orta sahibkarlığa geniş dəstək, üçüncüsü, karantin rejiminin tətbiqi nəticəsində qazancından məhrum olan vətəndaşlara əmək haqqının ödənilməsi kimi tədbirləri əhatə edir”-deyə, Əli Əhmədov vurğulayıb.

Çıxışının sonunda YAP Sədrinin müavini sentyabrın 27-dən etibarən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyət barədə tədbir iştirakçılarına məlumat verib. Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etdiyini və bunun nəticəsində 1 milyondan çox insanın öz doğma torpaqlarında yaşamaq hüququndan məhrum olduğunu deyən Əli Əhmədovun sözlərinə görə, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalı və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü təmin olunmalıdır. Forumda həmçinin, digər çıxış edənlər də toplantının mövzusu barədə fikirlərini bildiriblər.

# Mübariz Qurbanlı: “Mədəni irsimizin dağıdılmasına görə Ermənistan dövləti məsuliyyət daşıyır”



Ermənistanın təcavüzkar siyasətinin tərkib hissələrindən birini də Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən maddi-mədəniyyət nümunələri, o cümlədən tarixi-dini abidələrini məhv edilməsi, o cümlədən onların tarixinin saxtalaşdırılması, özününküləşdirilməsi təşkil edir. Bunun nəticəsi olaraq, 30 ilə yaxın müddətdə əzəli torpağımız Qarabağdakı varlığımızın, milli kimliyimizin maddi sübutları olan minlərlə tarixi abidəmiz dağıdılıb, milli-mədəni dəyərlərimiz təhqirə məruz qalıb. Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

M.Qurbanlı qeyd edib ki, son günlər düşmən işğalından azad edilmiş Zəngilan rayonunda yerləşən erməni təcavüzünün qurbanına çevrilmiş məsciddəki videogörüntü, müqəddəs məkanda donuz saxlanılması faktı erməni vandalizmini bir daha təsdiqləmiş oldu: “Azərbaycanın maddi-mədəni və tarixi irsinə istiqamətlənmiş erməni vəhşiliyi bəşər mədəniyyətinə qarşı təcavüz olmaqla yanaşı, həm də bütün müsəlman dünyasına qarşı edilən cinayət və təhqirdir. Sözügedən fakt müsəlman ölkələri və xalqlarına yönəlik çirkin əmələ çevrilmiş islamofob meyillərin bariz göstəricisidir. İlahi dinlərin hər birində məbəd dağıtmaq böyük günah hesab edilir. Görünən odur ki, dini öz çirkin məqsədləri üçün bayraq edən ermənilərin etdiyi insanlıq əleyhinə cinayətlər heç bir dinin humanist prinsiplərinə uymur.

Azərbaycanın işğal olunmuş ərazilərində insanlıq və mülkiyyət əleyhinə olan cinayətlərə, mədəni irsin dağıdılmasına görə Ermənistan dövləti məsuliyyət daşıyır.

Erməni işğalçılarının bu hərəkəti pislənilsə də, təəssüf ki, buna qarşı beynəlxalq təşkilatlar, böyük dövlətlər, xüsusilə müsəlman ölkələri səviyyəsində kifayət qədər layiqli münasibət bildirilmir. Bir çox hallarda bu prosesləri görməməzliyə vururlar, ən yaxşı halda isə sükutla üzərindən keçirlər. Bütün cəhdlərinə baxmayaraq, ermənilər tarixin yazısını dəyişdirə bilməyəcəklər. Çünki gerçək tarix yalnız həqiqətdən keçir, həqiqət isə birdir: Qarabağ Azərbaycanın tarixi torpağı, ayrılmaz tərkib hissəsidir. Bu gün tarixi ədaləti bərpa edən qüdrətli Azərbaycan dövləti illərdir bütün dünyanın göz yumduğu bu vandalizmə son qoyaraq torpaqlarımızı işğaldan azad edir. Prezident, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, xilas olan məbədlərimiz bərpa olunacaq və məscidlərimizdə azan səsi eşidiləcək”.

# Rusiya XIN: Münaqişə Ermənistanda getmir, KTMT-nin köməyindən danışmaq düzgün deyil

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) müdafiə potensialının işə salınması barədə danışmaq düzgün deyil. Məlumata görə, bunu Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin deyib.



O bildirib ki, münaqişə Ermənistan ərazisinə keçməyib: “Ermənistandan rəsmi müraciət daxil olmayıb. KTMT öz üzv dövlətlərinə müəyyən vəziyyətlərdə, açıq-aşkar aqressiya olarsa, kömək edir. Münaqişənin Ermənistanda deyil, Qarabağda getdiyi vaxtda KTMT-nin köməyindən danışmaq düzgün deyil”.

# Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

## *İşğaldan azad edilmiş şəhər və kəndlərimiz*









Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində oktyabrın 23-dək 3 şəhər, 3 qəsəbə və 133 kənd işğaldan azad edilib. İndiyədək Cəbrayıl şəhəri və rayonun 50 kəndi, Füzuli şəhəri və rayonun 30 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd qəsəbələri və 32 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 18 kəndi, Tərtər rayonunun 3, həmçinin Ağdərə rayonu və Murovdağ istiqamətlərində strateji yüksəkliklər, habelə Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri,

Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri azad olunub. SİA düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısını təqdim edir:

**27 sentyabr**

Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

**3 oktyabr**

Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr**

Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**9 oktyabr**

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

Füzuli rayonunun Yuxarı Güzlək, Gorəzilli kəndləri

Tərtər rayonunun Çaylı kəndi

**14 oktyabr**

Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

**15 oktyabr**

Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

Füzuli rayonunun Arış kəndi

Cəbrayıl rayonunun Doşulu kəndi

**16 oktyabr**

Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr**

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr**

Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının qaldırıldı

**19 oktyabr**

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr**

Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr**

Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr**

Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi

Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr**

Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri.

# Həmsədr ölkələrin fiaskosu: İlham Əliyevin növbəti diplomatik qələbəsi

## *Ədalətsiz bəyanatın qəbul edilməməsi Azərbaycan Prezidenti İlham Əliyevin növbəti diplomatik qələbəsidir*

***25 illik susqunluqdan sonra BMT Təhlükəsizlik Şurası sanki yuxudan ayılıb, qeyri-adekvat müraciətlər, mühümmalı qərarlar, lazımsız qətnamələr verməyə başlayıb. Dəfələrlə bu barədə deyilib, yazılıb, amma BMT özünün bu sayaq hərəkətləri ilə bir çox ölkənin səbr kasasını daşırıb. Yadınızdadırsa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də BMT Təhlükəsizlik Şurasında islahatlar aparılmasının gərəkliyi barədə çıxış etmişdi. Hətta Qoşulmama Hərəkatının toplantısında bu barədə növbəti çıxışını etmişdi.***

İki gün öncə Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində də həmsədrlər haqqında fikirlər söyləyib: "Mən bu yaxınlarda demişdim ki, Minsk qrupu 30 il ərzində heç bir nəticə əldə etmədi. Eyni zamanda, mən dedim ki, biz Minsk qrupunun vasitəçiliyi ilə keçmiş Ermənistan hökumətləri ilə irəliləyişə nail ola bilmişdik. Böyük olmasa da, hər halda irəliləyiş idi. Lakin əgər 30 il ərzində bir ölkələr qrupu nəticə əldə edə bilmirsə, bu, özü hər şeyi göstərir".

Azərbaycan Prezidenti bildirib ki, həmçinin, Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir: "Bu ölkələrin iştirakı və bu ölkələrin səs verməsi ilə BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrə niyə əməl edilmədiyi sual olunur. Çünki Minsk qrupunun həmsədrləri və daimi üzvlər eyni ölkələrdir. Beləliklə, bu, açıq sualdır".

Məsələ burasındadır ki, bütün olanlara rəğmən 2020-ci il oktyabrın 19-da BMT Təhlükəsizlik Şurasının (TŞ) Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri - Rusiya, ABŞ və Fransa tərəfindən BMT TŞ-nın Prezidentinin bəyanatının layihəsi hazırlanmış və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdır. İş ondadır ki, rotasiya qaydasına uyğun olaraq oktyabr ayı üçün TŞ-nin Prezidenti funksiyasını Rusiya yerinə yetirir. O Rusiya ki, digər həmsədr ölkələrdən daha çox Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olur, regiona bələddir, münaqişənin tarixini, fəlsəfəsini gözəl bilir.



Buna baxmayaraq Rusiya və digər həmsədr ölkələr 25 illik fasilədən sonra özlərinin yarıtmazlığı səbəbindən həll etmək istəmədikləri münaqişəni Azərbaycan bütün beynəlxalq qanunlara, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həll etməyə çalışdığı bir məqamda dövrəyə girməyə, "atəşkəs"ə nail olmağa və beləliklə Dağlıq Qarabağ probleminin həllini qeyri-müəyyən vaxta qədər təxirə salmağa cəhd ediblər. Hətta bunun üçün Bəyanat layihəsi hazırlayıblar. Qəribəsi də budur ki, həmin layihədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrə istinad yer almayıb.

BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən fərqli olaraq burada təmsil olunan Qoşulmama Hərəkatına (QH) üzv olan 7 ölkə - İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin - layihəyə TŞ qətnamələrinə istinadın daxil edilməsini təklif ediblər. Amma həmsədr ölkələr bunun qəbuledilməz olduğunu bildiriblər. Səbəb, bəlli deyil. Daha doğrusu ölkələrin ərazi bütövlüyünə hörmətsiz yanaşan ABŞ, Fransa və Rusiya kimi imperiya düşüncəli dövlətlər hər iddialarını zorla ölkələrə tətbiq etməyə çalışırlar. Demokratiya, fikir, söz azadlığı, özgürlük bunlar üçün yalnız kağız üzərindədir.

Qayıdaq BMT TŞ-nin iclasına, həmsədr ölkələr tərəfindən bəyanatın iki dəfə sükut proseduru vasitəsilə qəbuluna cəhd göstərilməsinə baxmayaraq Qoşulmama Hərəkatı ölkələri prinsipial mövqe nümayiş etdirərək TŞ qətnamələrinə istinadın yer almasında təkid ediblər. Bundan sonra həmsədr ölkələr rüsvayçılıqla bəyanat layihəsini geri çəkiblər.

Məlumat üçün bildirək ki, son 25 ildə ilk dəfə idi ki, Dağlıq Qarabağ məsələsi BMT Təhlükəsizlik Şurasında müzakirə olunurdu. Həmsədr ölkələr tərəfindən hazırlanmış bəyanat layihəsi sırf onların stilində idi. Atəşkəsə nail olunması, danışıqların aparılması kimi şablon, çeynənmiş fikirlər. Dişsiz, məzmunsuz, ünvansız, işğalçı və işğala məruz qalan ölkə arasında fərqin qoyulmadığı bir mətn. Həmsədr ölkələr öz xislətlərinə sadiq qalaraq erməni təəssübkeşləri olduqlarını və bundan əl çəkə bilmədiklərini açıq şəkildə büruzə verdilər. Əslində Təhlükəsizlik Şurasının qətnamələrinə bu münasibət ilə Rusiya, Fransa və ABŞ bir daha özlərini ifşa etdilər. Məlum oldu ki, həmsədrlər ədalətli, bitərəf deyillər, onlar açıq-aşkar işğalçının tərəfini tuturlar.

Qeyd edək ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri 1993-cü ildə yekdilliklə qəbul edilib. Hər üç həmsədr ölkə qətnamələrin lehinə səs verib. TŞ-nin 884 saylı qətnaməsində "822, 853, 874 saylı qətnamələrin icra edilməsi üçün təcili addımlara dair yenilənmiş vaxt cədvəli"nə uyğun olaraq işğalçı qoşunların Azərbaycanın işğal edilmiş digər ərazilərindən çıxarılması tələb edilirdi.

Sual olunur, bəs nəyə görə həmsədr ölkələr TŞ qətnamələrindən bu qədər qorxurlar? TŞ qətnamələrinin adı çəkiləndə nəyə görə narahat olurlar? Bu qətnamələr nəyə görə 27 ildir ki, kağız üzərində qalır? Nəyə görə işğalçı ölkəyə təzyiqlər göstərilmir, ona qarşı sanksiyalar qoyulmur? Cavab isə yoxdur.

Bizim cavabımız isə var, Ermənistan beynəlxalq hüququ və TŞ qətnamələrini ayaq altına ataraq öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmadığı, əksinə işğalı möhkəmləndirdiyi və Azərbaycan torpaqlarını ilhaq etmək xəttini tutduğu halda Azərbaycan ordusu 27 ildən sonra Ermənistanın hərbi təcavüzünə cavab olaraq başladığı əks-hücum əməliyyatları ilə Füzuli, Cəbrayıl, Zəngilanı işğaldan azad etdi. Bununla da Təhlükəsizlik Şurasının qətnamələrinin bir hissəsinin icrasını özü təmin etdi.

Münaqişənin indiyə qədər həll olunmamasının günahkarı Ermənistan və Minsk qrupunun həmsədr ölkələridir. BMT TŞ kimi Minsk qrupu da tamamilə mənasız bir quruma çevrilib. Nə qədər geç deyil həm BMT TŞ-də, həm də Minsk qrupunda islahatlar aparmaq, tərkibi yeniləmək, qərar və qətnamələrə hörmət mühiti yaratmaq lazımdır. Məsələn, nəyə görə Türkiyə, Pakistan, İndoneziya, Braziliya, Cənubi Afrika kimi ölkələr TŞ-nin daimi üzvü olmamalıdır? Nəyə görə Minsk Qrupunun həmsədri digər 9 üzv dövlətlər olmasın, nəyə görə həmsədrlər 17 ildir ki, dəyişmir. Üstəlik dişsiz və fəaliyyətsizdirlər, işğalçı ilə işğal olunan dövləti tərəzinin eyni gözünə qoyub ədaləti görməzdən gəlirlər?

Sonda onu da xüsusi qeyd etmək lazımdır ki, ədalətsiz bəyanatın qəbul edilməməsi Qoşulmama Hərəkatına üzv ölkələrin dəstəyi Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsidir.

---



## Aleksey Arestoviç: "Paşinyan iflasa uğramaq yolunu seçdi"

Ermənistan rəhbərliyi bir gün ərzində qadın batalyonundan və total müharibənin zəruriliyindən tutmuş, "münaqişənin diplomatik yolla həll olunması"na və "münaqişəni sülh yolu ilə həll etməyə hazır olması"na qədər ziddiyyətli və sərsəm bəyanatlar səsləndirib. SİA xəbər verir ki, bu barədə Ukraynalı siyasi və hərbi ekspert Aleksey Arestoviç sosial şəbəkədə yazıb. Ekspertin sözlərinə görə, Nikol Paşinyan hazırda ən kritik vəziyyətdədir.

"Müharibəni dayandırmaq Paşinyan üçün vəzifə itkisi və ya fiziki cəhətdən zərərçəkmə ilə nəticələnə bilər. Müharibəni davam etdirmək isə ən ağır məğlubiyyətə uğramaq və daha bir neçə min vətəndaşını itirmək deməkdir.Amma o özünü çətinliyə salıb, münaqişənin tədricən həlli yolu əvəzinə müharibə və nümayişkaranə anti-Azərbaycan ritorikası ilə iflasa uğramaq yolunu seçdi. Onun bu taleyinə heç kim qibtə etməzdi", deyə Aleksey Arestoviç sosial şəbəkədə qeyd edib.

*İnam Hacıyev*

## Rusiyalı deputat: "Rusiya Qarabağ müharibəsində hərbi formada iştirak etməyəcək"



Dövlət Duması Müdafiə Komitəsi sədrinin 1-ci müavini Andrey Krasov parlamentin aşağı palatasındakı həmkarı Konstantin Zatulin ilə media üzərindən polemikaya girib. RİA Novosti-yə verdiyi müsahibədə,, A.Krasov Rusiya Silahlı Qüvvələrinin Dağlıq Qarabağ münaqişəsi zonasında istifadəsinin planlaşdırılmadığını, bu mövqenin Müdafiə Nazirliyi ilə razılaşdırıldığını, cənab Zatulinin alt palata adından bu mövzuda danışmaq səlahiyyətinin olmadığını bildirib. Deputat ölkə prezidenti Vladimir Putinin, Xarici İşlər Nazirliyi və Rusiya Müdafiə Nazirliyinin rəhbərlərinin problemin sülh yolu ilə həlli üçün səy göstərdiklərini də xatırladıb. "Bütün bu tədbirlər müsbət nəticə əldə etmək üçün kifayətdir" millət vəkili deyib.

*Elçin*

## Argentina nəşri Azərbaycan tərəfindən İranla dövlət sərhədi üzərində tam nəzarətin bərpasından yazır




Argentinanın "Clarin" milli gündəlik qəzetinin internet portalında "İlham Əliyev İranla sərhədin tam nəzarətinin bərpa edildiyini bildirir" başlıqlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin Silahlı Qüvvələri tərəfindən İranla sərhədin tam nəzarətinin bərpa edildiyini bildirdiyi qeyd edilir.

Argentina nəşri Azərbaycan Prezidentinin "Twitter" səhifəsində yaydığı məlumatdan sitat gətirir: Azərbaycan ordusu Füzulidə üç kəndi, Cəbrayılda dörd kəndi, habelə Zəngilan rayonunun 13 kəndini və Ağbənd qəsəbəsini azad edib. Ağbənd yaşayış məntəqəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinə tam nəzarət təmin edilib!

# “Paşinyan bu addımları ilə danışıqlar prosesinin mənasızlığını ortaya qoyur”



“Bu gün biz Ermənistanın baş naziri Nikol Paşinyanın hər hansı cəhdlərini müşahidə edərkən, həmin cəhdlərində sülhə, yaxud danışıqlar prosesinə dair fikirlərinə dair heç nə görə bilmirik və bundan təəccüb etməyə də dəyməz”. Sözügedən fikirləri Olaylar.az -a “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin Yaponiyanın nüfuzlu “Nikkei” nəşrinə verdiyi müsahibəsində irəli sürdüyü fikirlərini şərh edərkən deyib.

Onun sözlərinə görə, dövlətimizin başçısı hazırkı dövrə qədər dünyanın bir çox nüfuzlu media qurumlarına verdiyi müsahibələrində hər dəfə xatırladıb ki, Azərbaycan dövləti 30 ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı tərəf kimi çıxış edib, bir sıra təşəbbüslər irəli sürməklə, işğal faktının aradan qaldırılması üçün bütün mümkün vasitələr irəli sürüb və qarşı tərəf, yəni Ermənistan hakimiyyəti bu təşəbbüs və təkliflərdən müxtəlif üsullarla qaçıb, sülh prosesinin həyata keçirilməsində maraqlı olmadığını nümayiş etdirib: “Hazırda isə, Azərbaycan dövləti, Azərbaycan Prezidenti məhz xalqının iradəsinə söykənərək, beynəlxalq hüquq tərəfindən tanınan və dəstəklənən qərarları əsas götürməklə, işğal altındakı ərazilərimizi hərbi yolla azad etmək siyasətini həyata keçirir. Belə olan məqamda biz digər bir nüansa diqqət yetirməliyik. Nikol Paşinyan artıq bəyan edib ki, o sülhə hazır deyil və eyni zamanda, dünyanın müxtəlif ölkələrində yaşayan erməniləri, habelə Qarabağdan İrəvana qaçmış erməniləri cəbhəyə yollanmağa səsləyir. Aydındır ki, Paşinyan siyasi hakimiyyətinin ömrünü uzatmağa çalışır, amma digər tərəfdən unudur ki, pafos və saxta vətənpərvərlik şüarları vasitəsi ilə xalqını açıq-aşkar, başqasının torpağında ölməyə göndərdiyi övladlarına görə onun öz hakimiyyətini itirməsi ilə yanaşı, fiziki məhvi də reallaşa bilər. Paşinyanın bu qədər ağır və sarsıdıcı məğlubiyyətdən sonra xalqının əlindən qurtulması elə də inandırıcı görünmür, yəni o rahat şəkildə qaçaraq canını qurtara bilməyəcək”.

“Əbəs deyil ki, cənab İlham Əliyev yapon nəşrinə verdiyi müsahibəsində də həmin amillərə toxunub və bildirib ki, Ermənistanın bu hökuməti ilə münaqişənin sülh yolu ilə nizamlanması perspektivləri çox uzaqdır”, deyə xatırladan “SƏS” qəzetinin baş redaktoru onu da bildirib ki, Paşinyan bu addımları ilə məhz təhrikedicilik törədir, danışıqlar prosesinin mənasızlığını ortaya qoyur: “Ermənistan dinc şəhərlərimizə ballistik raketlər atdı, mülki vətəndaşlarımızı öldürdü və yaraladı, bu gün də həmin cinayətlər törədilməkdədir. Digər bir məsələyə də diqqət yetirək. Baxın, hətta insani dəyər, humanistlik məqsədi ilə Moskvada əldə olunmuş birinci razılaşmanı və sonrakı razılaşmanı yenə də Paşinyan pozdu. Bu gün Ermənistanın terror siyasətini Qarabağ cəbhəsində davam etdirməsi marağı artıq həmin ərazilərdə epidemioloji təhlükə riskinin də artmasına səbəb olmaqdadır. Halbuki, Azərbaycan tərəfi sonradan birtərəfli qaydada təklif irəli sürmüşdü ki, düşmən öz ölmüş hərbçilərinin döyüş meydanından yığsın və biz yenə də bunun qarşılığında qeyri-insani rəftarın şahidlərinə çevrildik”.

Bəhruz Quliyev Azərbaycan dövlətinin ermənilərin Qarabağda məskunlaşması mümkünlüyünü bəyan etməsini də şərh edib və bildirib ki, bu barədə Prezident İlham Əliyev sözügedən nəşrə müsahibəsində vurğulayıb: “Torpaqlarımız işğaldan tam azad olunduqdan sonra Azərbaycan dövləti ermənilərə mədəni muxtariyyət verə bilər və belə bir təklifin irəli sürülməsi də sübut edir ki, Azərbaycan daim sülh carçısı olaraq çıxış edir. Amma bu o demək deyil ki, düşmən dövlətimizin humanizm prinsipinə söykənən siyasətindən öz kirli, terrorçuluq məqsədləri üçün istifadə edə bilər. Yəni bizim erməni xalqı ilə işimiz yoxdur, yalnız təhlükə yaradan qüvvələrinə, silahlı birləşmələrinə, onların vəhşiliyinə qarşı əlbəttə ki, humanizm nümayiş etdirə bilmərik. Bu baxımdan, bu gün hər birimiz xalq olaraq Ali Baş Komandanımızın ətrafında birləşərək, vahid şəkildə öz ədalətli, haqlı vətən müharibəmizi davam etdirir, qələbələrə doğru addımlayırıq”.

# Ermənistan tərəfinin İranın Azərbaycan mövqelərini artilleriya atəşinə tutması barədə yaydığı məlumat yalandır

Ermənistan tərəfinin guya İranın hava məkanına Azərbaycan Ordusuna məxsus kamikadzedronun daxil olmasından sonra bu ölkənin Azərbaycanın mövqelərini artilleriya atəşinə tutması barədə yaydığı məlumat yalandır və düşmənin növbəti dezinformasiyasıdır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İran-Azərbaycan dövlət sərhədinin tam nəzarətimizə götürülməsindən təşvişə düşən Ermənistan tərəfi bu cür yalan xəbərlər yaymaqla iki ölkə arasında olan yüksək səviyyəli münasibətlərə xələl gətirməyə cəhd göstərir. Azərbaycan ilə İran arasında mövcud olan və dərin tarixi köklərə malik siyasi, iqtisadi, dini, mədəni və digər sahələrdə əməkdaşlığımız uğurla inkişaf edir.



Beynəlxalq ictimaiyyət tərəfindən lazımi dəstək ala bilməyən Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafından da ciddi narahatlıq keçirdiyi üçün çıxış yolunu yalan və böhtan xarakterli məlumatların yayılmasında görür.

# 24 oktyabr böyük dramaturq Hüseyn Cavidin doğum günüdür

**Kəssə hər kim tökülən qan izini,**
**Qurtaran dahi odur yer üzünü.**

Bu misraların müəllifi filosof-şair və istedadlı dramaturq Hüseyn Cavidin 24 oktyabr tarixi doğum günüdür. Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmış Hüseyn Cavid neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri ilg bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır. Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan milli romantik şeirin və mənzum faciənin banisi, filosof-şair və istedadlı dramaturq Hüseyn Cavid ictimai fikir tarixində böyük rol oynamışdır. Hələ sağlığında öz orijinal sənət yolu ilə milli ədəbi-ictimai fikrin diqqətini yaradıcılığına cəlb etmiş Hüseyn Cavid irsi günahsız yerə repressiya olunduqdan sonra, bir müddət yasaq edilsə də, əsl vətənpərvər ziyalıların xatirindən bir an da çıxmamış, yeri gəldikcə, şifahi şəkildə olsa da, təbliğ edilmişdir. Bütün böyük klassiklər kimi, Hüseyn Cavid də zamanın sınağından alnıaçıq çıxaraq, layiq olduğu bəraəti almışdır.

Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin əsl qiymətini sözün-sənətin böyük bilicisi və hamisi Azərbaycan xalqının Böyük Oğlu, Ümummilli Lider Heydər Əliyev vermiş, onun istər cismən, istərsə də mənən vətəninə və xalqına qaytarılmasında müstəsna rol oynamışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından, müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir. Ulu Öndər Heydər Əliyev deyirdi: “Tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi”.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının Azərbaycana - şairin doğma yurdu Naxçıvana gətirilməsi Sovet məkanında yaşadığımız illərdə, həqiqətən də, böyük maraq doğurmuşdu. Milli mədəniyyətimizin hərtərəfli inkişafına, yüksəlişinə daim təkan verən Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın Birinci Katibi vəzifəsində çalışarkən, 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmiş, bu qərardan sonra - 1982-ci il oktyabrın 3-də Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının Uzaq Sibirdən tapılıb gətirilməsinə xeyir-dua vermişdir. 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul etmiş və bu qərarın icrası rusiyalı həmkarlarının köməyindən istifadə edib, şairin məşəqqətli ömür yolunu tədqiq edərək, Cavid haqqında Uzaq Sibirdə saxlanılan sənədlərin əldə olunmasına nail olan Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova həvalə olunmuşdu.

Cavidin cənazəsinin qalıqları onilliklərdən sonra uzaq və Buzlu Sibirin əlçatmaz yerlərindən doğma yurdu Naxçıvana gətirildi. Böyük dramaturqun doğum günündə onun keçdiyi ömür yolunu bir daha vərəqləyirik. Böyük dramaturq Hüseyn Cavid 1882-ci ildə oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini isə M.T.Sidqinin “Məktəbi-Tərbiyə” adlı yeni üsullu məktəbində almışdır. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin “Talibiyyə” mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin Ədəbiyyat şöbəsini bitirmiş, Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur.

Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan “Şeyx Sənan” (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədriclə “haqq verilmir, alınır” ideyasına gəlib çıxmışdır. Yaradıcılığında mühüm yer tutan “İblis” (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - “insan insana qurddur” fəlsəfəsinin tərəfdarları,



“iyirminci əsrin mədəni vəhşiləri” olan dairələri İblis surətində ümumiləşdirilmiş və işğalçı müharibələrə lənət yağdırılmışdır.

Ümummilli Lider Heydər Əliyevin “Hüseyn Cavidin 120 illik yubileyi haqqında” imzaladığı Sərəncamdan bir gün sonra 2002-ci il 24 oktyabrda, yeni Hüseyn Cavidin 120 illik yubileyi günündə şairin Ev Muzeyi açıldı. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Azərbaycan Prezidentinin Sərəncamına əsasən, böyük sənətkarın əsərləri latın qrafikasında çap olunub. Hüseyn Cavidin 130 və 135 illik yubileylərinin keçirilməsi haqqında dövlət başçısı sərəncamlar imzalamışdır. Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək, Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır. Böyük dramaturq Hüseyn Cavid “Şeyx Sənan” faciəsində yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarışında olaraq, onun hisslərinin aliliyini yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Hüseyn Cavid də, məhz belə ali dəyərlərin axtarışında olaraq, əbədiliyini qazanmışdır.

*Zümrüd BAYRAMOVA*

# Əlcəzair və Misir mediası Gəncə terrorundan yazıb



Jurnalist Əli Zülfüqaroğlunun və diaspor üzrə tədqiqatçı ekspert Elnur Eltürkün həmmüəllifliyi ilə Əlcəzair və Misir mətbuatında Ermənistanın Gəncədə törətdiyi terror aktları ilə bağlı yazı dərc olunub.

AZƏRTAC xəbər verir ki, “Ermənistan Azərbaycanda mülki əhaliyə raket zərbələri endirir” sərlövhəsi və “Gəncədə törədilən terror aktı uşaqların həyatına son qoydu” yarımbaşlığı ilə dərc olunan məqalədə erməni vandalizmindən söhbət açılır. Yazıda qeyd olunub: “Bu gün Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsində toqquşmalar davam edir. Ermənistan Azərbaycan torpaqlarının 20 faizindən çoxunu işğal altında saxlamasına baxmayaraq, yenə də Azərbaycana qarşı hücumlara başladı. Ermənistanın otuz ilə yaxın müddətdə işğal altında saxladığı torpaqlardan çəkilməsi üçün Azərbaycanın sülh yolu ilə diplomatik səy göstərdiyi halda, Yerevan daim qeyri-konstruktiv mövqe sərgiləyərək təxribatlarını davam etdirdi və sülh danışıqlarını pozdu. Yenidən Azərbaycan ərazilərinə, xüsusilə də mülki əhalinin yaşadığı və hərbi birləşmələrin olmadığı yerlərə ağır silahlardan atəş açmağa başladı”.

Məqalədə Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz boşaltması ilə bağlı BMT-nin qətnamələri, Gəncədə Ermənistan silahlı qüvvələrinin törətdiyi terror aktları, həyatını itirən mülki şəxslər barədə məlumat yer alıb.

# Prezidentə yazırlar: Düşmən üzərində qazandığımız qələbələr Sizin cəsarətinizin, uzaqgörənliyinizin və polad iradənizin nəticələridir



***Müzəffər Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın ard-arda işğaldan azad edilməsi vətəndaşlarımızda, xaricdə yaşayan soydaşlarımızda, eləcə də qardaş Türkiyədə və digər ölkələrdə yaşayan azərbaycansevərlərdə böyük sevinc hissi yaradıb. Onlar dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə yazdıqları məktublarda bu sevinc hisslərini ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***

Türkiyənin Ankara şəhərindəki qazilər dövlətimizin başçısına yazırlar: “Möhtərəm cənab Prezident, biz Türkiyə üçün hər zaman xainlərə, separatçı qüvvələrə qarşı mübarizə aparan qazilərik. Bu məktubu yazdığımız vaxtda Sizin, Azərbaycan dövlətinin şanlı ordusunun və xalqınızın tarixin ən böyük qəhrəmanlıq dastanlarından birini yazdığınızı görürük. Bu qəhrəmanlıq eposunun yazılmasında hər zaman Sizinlə olduğumuzu bildiririk. Azərbaycan tək deyil, türk dövləti və milləti həmişə olduğu kimi, yenə də Azərbaycanın yanındadır. Biz Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü hədəf alan hər cür cəhd və təxribatına qarşıyıq. Qarabağın işğalının sona çatması üçün Vətən müharibəsini və Azərbaycanın milli mübarizəsini bütün gücümüzlə dəstəklədiyimizi bəyan edirik. Böyük türk milləti, o cümlədən biz qazilər Sizin rəhbərliyinizlə işğalçı Ermənistana qarşı Azərbaycan Silahlı Qüvvələrinin hər bir qələbəsini böyük sevinc və həvəslə qarşılayırıq. Əminik ki, gələcək nəsil türk dünyasının ortaq coğrafiyasını, mədəni, mənəvi dəyərlərinin yaşadılmasını, ümumi tarixi və mədəni dəyərləri qoruyacaq. Bir daha Vətən bildiyimiz Azərbaycanın haqq mübarizəsində yanınızda olmaq üçün hər an Azərbaycana gəlməyə hazır olduğumuzu bildirir, şəhid ailələrinə başsağlığı diləyir, yaralı Azərbaycan qazilərinə şəfa diləyirik”.

Moskva şəhərindən Tarix Verdiyev və Yaqut Verdiyeva yazırlar: “Cənab Ali Baş Komandan, hörmətli İlham Heydər oğlu, Moskvada yaşayan biz azərbaycanlılar ordumuzun qələbələrinə sevinir, dinc insanlarımızın həlak olmasına çox kədərlənirik.

Cənab Ali Baş Komandan, mən vaxtilə tank qoşunlarında xidmət etmişəm. Əmr etsəniz, istənilən vaxt Vətənimizə qayıdıb tarixi torpaqlarımızın işğalçılardan azad edilməsi uğrunda döyüşməyə hazırıq. Bizim işimiz haqq işidir! Vətən hər şeydən ucadır!”.

Minsk şəhərindən Tatyana Laputskaya və Oruc Orucov yazırlar: “Cənab Prezidentimiz, Belarusdan Orucovlar - Laputskilər ailəsi Sizi salamlayır. Sizin komandanlığınız altında Azərbaycan əsgərlərinin işğalçı erməni terrorçuları üzərində qazandığı qələbələrlə qürur duyuruq. Qarabağ həmişə Azərbaycanın olub və əsrlərboyu da Azərbaycanın olacaq. Azərbaycandan gələn hər bir şad xəbəri uzaq Belarusda səbirsizliklə gözləyir, diqqətlə izləyirik. Haqq-ədalətin zəfərinə Sizinlə, Azərbaycan xalqı ilə birlikdə sevinirik. Ordumuzun qələbələrinə görə Sizin sevinc və qürur hissiniz sanki televiziya ekranından bizlərə də sirayət edir. Allah Sizə güc-qüvvət versin ki, Azərbaycan xalqının mənafeyi naminə müdrik siyasətinizi bundan sonra da davam etdirə biləsiniz. Allah Sizi qorusun!”.

Rusiyanın Tümen vilayətindən Füzuli Burcuyev: “Möhtərəm cənab Prezident, Rusiya Federasiyasının Tümen vilayətinin çoxminlik Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımızı bildiririk, Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına tam dəstəyimizi ifadə edirik. Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi dəstəkləyən, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün cəsarətlə mübarizə aparan şanlı Azərbaycan Ordusuna hərtərəfli dəstək verən bütün Azərbaycan xalqının ruh və güc birliyindən qürur və sevinc hissi keçiririk. Ölkədə müxtəlif sahələrdə Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar sayəsində Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası yüksək səviyyəyə çatdırılmışdır ki, Sizin Ali Baş Komandan kimi qarşınıza qoyduğunuz bütün vəzifələrin uğurla yerinə yetirilməsindən əminliklə danışmağa imkan verir. Biz, Tümen vilayətinin Azərbaycan diasporunun nümayəndələri olaraq, Azərbaycanın atəş altında olan kəndləri və şəhərlərinin mülki əhalisinin, eləcə də silahlı qüvvələrinin şəxsi heyəti ailələrinin ehtiyacları üçün dərman, qida, zəruri ehtiyaclar şəklində lazımi humanitar yardım göstərməyə mütləq hazır olduğumuzu bildiririk”.

Tatarıstandan Ramiz Məmmədovun məktubunda deyilir: “Hörmətli cənab Prezident, Ali Baş Komandan olaraq Sizin qətiyyətli addımlarınız sayəsində Azərbaycanın hərb tarixinə yeni səhifələr yazılır. Məhz buna görə də hazırda dünya azərbaycanlıları çox qürurlu anlar yaşayırlar. Bu sevinci və fərəhi bizlərə bəxş etdiyiniz üçün Tatarıstanda yaşayan soydaşlarımız adından Sizə minnətdarlığımızı bildiririk. Bizlər hər zaman xalqımızla nəfəs alırıq, ürəyimiz Vətənlə döyünür. Sizin “Qarabağ Azərbaycandır!” şüarınızı rəhbər tutaraq, Qarabağ həqiqətlərini Tatarıstanda qürurla təbliğ edirik. Erməni terrorçularına qarşı mübarizədə iştirak etməyə hər an hazır dayanmışıq və Ali Baş Komandan kimi Sizin əmrinizi gözləyirik. Tanrı Sizi və xalqımızı qorusun!”.

Şəki sakini Rauf Ağayev yazır: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, hazırda məhkumluq həyatı yaşayıram. Televiziya vasitəsilə cəbhədə gedən hərbi əməliyyatları davamlı olaraq izləyirəm. Ordumuzun düşmən işğalından azad etdiyi kəndləri, şəhərləri gördükcə çox qürurlanıram. Buna görə Sizə və Ordumuza minnətdaram. Lakin ermənilərin bizim dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri gördükcə, şəhid olmuş günahsız körpələrin, anaların qisasını almaq hissi məni bir an belə rahat buraxmır. Cənab Ali Baş Komandan, bildirmək istəyirəm ki, igid əsgərlərimizlə birlikdə döyüşmək üçün hər an əmrinizə hazıram”.

Bərdə sakini Fərman Əkbərli: “Əziz Prezidentim, mənim adım Fərmandır, 12 yaşım var. Bərdə şəhərində yaşayıram. Mən fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. İnşallah, torpaqlarımız azad ediləcək, çünki bizim igid əsgərlərimiz var. Düşmənlərimiz xain və acgözdürlər. Biz onlara qalib gələcəyik. Qarabağ bizimdir, bizim olacaq! Qarabağ Azərbaycandır!”.

Zəngilan sakini Ruslan Şirinov: “Hörmətli Ali Baş Komandanımız, şanlı Azərbaycan Ordusu 29 il həsrətini çəkdiyim, doğma torpağım olan Zəngilan rayonunu mənfur işğalçı düşmənlərdən azad etdi. Ailəm adından Sizə və şanlı Ordumuza minnətdarlığımızı bildirirəm. İnşallah, tezliklə Bayrağımız Qarabağda dalğalansın. Biz Sizinlə fəxr edirik! Uca Tanrı Sizi və Ordumuzu qorusun!”.

Ağdam sakini Elbrus Abdullayev: “Möhtərəm cənab Prezident, Cəbrayıl, Füzuli, Zəngilan şəhərlərinin, Hadrut qəsəbəsinin və bir sıra kəndlərimizin işğaldan azad olunması münasibətilə Ağdam rayon əhalisi adından Sizi təbrik edirəm. Torpaqlarımızın azad olunacağına ümidimizi heç vaxt itirməmişdik. Çünki Sizin rəhbərliyinizlə ölkəmizin iqtisadi baxımdan inkişafı, ordumuzun qüdrətlənməsi və onun maddi-texniki bazasının möhkəmləndirilməsi bizi nikbin düşünmə-

yə sövq edirdi. Bu nailiyyətlərin sonda bizi Qarabağa aparacağına tam qəlbimizlə inanırdıq. Nəhayət həmin gün gəlib çatdı. Bu gün biz addım-addım Qarabağa doğru gedirik. "Hər işin başı səbirdir" - deyirlər. Biz 30 il dözdük, səbir etdik, möhkəmləndik və bu da nəticəsi... Cənab Prezident, Sizdən tezliklə Şuşanın, Xankəndinin azad olunduğu xəbərlərini gözləyirik. Ulu Tanrı hər bir işinizdə köməyiniz olsun".

Qusar rayonundan Şahin Ağabalayev dövlətimizin başçısına yazır: "Möhtərəm cənab Prezident, Zəngilan şəhərinin və ətraf kəndlərinin erməni işğalından azad edilməsi haqqında verdiyiniz zəfər soraqlı xoş xəbər bütün xalqımız kimi, qusarlıları da hədsiz sevindirmişdir. Sizin komandanlığınızla şanlı ordumuz tarixin yeni silinməz səhifələrini yazır, mümkünlüyü çətin olan xarüqələr yaradır. Artıq ordumuz qələbənin astanasındadır. Xalqımızın 30 ildir gözlədiyi torpaqlarımızın düşmən tapdağından azad edilməsi arzusu artıq reallığa çevrilir. Düşmən üzərində qazandığımız qələbələr Sizin bilavasitə cəsarətiniz, uzaqgörənliyiniz və polad iradənizin gözəl nəticələridir. Tanrı Sizi qorusun. Qələbə bizimdir, Qarabağ Azərbaycandır!".

Şəki sakini Nicat Qurbanzadə: "Hörmətli cənab Prezident, hamılıqla Qarabağ uğrunda yürütdüyünüz siyasəti dəstəkləyirik. Bu gün mübarizənin ölkəmizin lehinə davam etməsi Sizin uğurlu siyasətinizin və qüdrətli Azərbaycan Ordusunun yüksək döyüşkənlik əzmində olmasının nəticəsidir. İnanırıq ki, tezliklə tarixi torpaqlarımız tam geri alınacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Sizin kimi dəyanətli, qətiyyətli dövlət başçımız, Prezidentimiz olduğu üçün özümüzü çox qürurlu hiss edirik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Zaqatala sakini Hüseyn Qazıxanov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi və bütün Azərbaycan xalqını torpaqlarımızın azad olunması uğrunda erməni qəsbkarları ilə gedən döyüşlərdə qazandığımız uğurlara görə təbrik edirəm.

Hər dəfə televiziya ilə torpaqlarımızın azad olunması barədə verdiyiniz məlumatlar bizi ziyalıları çox qürurlandırır. Sizin uzaqgörən siyasətinizi dəstəkləyirəm. İşğal olunmuş hər bir qarış torpağın azad olunması, Azərbaycanın çiçəklənməsi naminə Sizin ətrafınızda yumruq kimi birləşdiyimizi əminliklə bildirirəm. Cənab Prezident, Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri kimi biz - saxurlular da Sizinlə fəxr edir, Azərbaycanın xoş gələcəyi naminə Sizə, əsgər və zabitlərimizə cansağlığı arzu edirik. Üçrəngli bayrağımızın Şuşada, Xankəndidə, bütün qalan şəhər və kəndlərdə dalğalanması ümidi ilə Tanrı Sizə yar olsun".

Gəncə şəhərindən Natiq Bayramov yazır: "Hörmətli cənab Prezident, nəhayət illərdir işğal altında qalan torpaqlarımız Sizin qətiyyətiniz, şücaətiniz və uzaqgörən siyasətiniz sayəsində yadelli işğalçılardan azad olunur. Bütün xalq əmindir ki, tezliklə yağı düşmən torpaqlarımızdan qovulacaq, o torpaqlar öz əzəli və əbədi sahiblərinə qovuşacaq. Mən birinci Qarabağ müharibəsində iştirak etmişəm və Qarabağ veteranıyam. Yenidən könüllü olaraq cəbhəyə getmək üçün rəsmi qeydiyyatdan keçdim. Lakin yaşıma və qismən səfərbərlik olduğuna görə aparmadılar. Cənab Ali Baş Komandan, bir daha öz bilik və təcrübəmi doğma Vətənimin erməni işğalçılarından azad edilməsinə sərf etməyə hazır olduğumu bildirirəm. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Füzuli sakini Mənsur Əliyev: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın azad edilməsi, Vətənimizin bütövləşməsi uğrunda apardığınız müdrik siyasət öz bəhrəsini verir. Bu gün Azərbaycanın üçrəngli bayrağı Füzulidə, Cəbrayılda, Zəngilanda dalğalanır. İnşallah, tezliklə Azərbaycanın digər dilbər guşələri də azad olunacaq. Ulu Tanrı Sizi və Azərbaycanın müzəffər Ordusunu qorusun. Qarabağ bizimdir!".

Naxçıvandan İmaməli Məmmədov: "Cənab Ali Baş Komandan, Vətənimizin bütövlüyü, torpaqlarımızın yağı düşməndən təmizlənməsi uğrunda apardığınız qətiyyətli siyasətiniz hər bir vətəndaşımızın ürəyindən xəbər verir. Sizə və komandanlığınız altında vuruşan igid əsgər və zabitlərimizə bu haqq işində yeni-yeni zəfərlər, qələbə sevincləri arzu edirəm. Bütün naxçıvanlılar kimi, mən də hər an cəbhəyə getməyə, Vətən uğrunda döyüşərək canımdan, qanımdan keçməyə hazıram. Yaxşı ki, Sizin kimi Prezidentimiz var. Hər bir azərbaycanlı Sizinlə qürur duyur. Allahdan Sizə möhkəm cansağlığı, hər zaman ucada olmağı arzu edirəm".

Bakı şəhər sakini Sabir Alışov: "Hörmətli cənab Prezident, üç cəbhədə Azərbaycan xalqı naminə uğur qazandığınıza görə Sizi minnətdaram və Sizi təbrik edirəm. Bəli, Siz, eyni zamanda, 3 cəbhədə vuruşursunuz. Koronavirusla mübarizə, informasiya müharibəsi və hazırda torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər. Böyük və Qadir Allahın köməyi ilə uğurlar əldə edirik. Sizin zəhmətinizi Allah yerdə qoymaz. Mən bir sadə vətəndaş kimi bütün ziyalılarımızdan xahiş edirəm ki, informasiya müharibəsində öz güclərindən maksimum istifadə etsinlər. Ləyaqətli xalqımın ləyaqətli rəhbəri, on milyonluq xalqımın arzusudur ki, Yeni ili Şuşada, Xankəndidə qeyd edək. Haqq-ədalət bizimlədir, Qələbə də bizimlə olacaqdır! Qələbəyə doğru İlhamla irəli!".

Şamaxı sakini Anar Xanaliyev: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bu gün Sizin rəhbərliyinizlə bizim şanlı Ordumuz düşmənə qalib gəlir, bizə qələbə, zəfər əzmini yaşadır və biz bundan qürur duyuruq. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz və Ali Baş Komandanımız var. Siz həmişə xalqa, ölkəmizə qayğı göstərir, çətinlikləri üzərimizdən yox edirsiniz. Ona görə də hər zaman xalq Sizi sevib və Sizə güvənib. Siz xalqın böyük sərkərdəsi, Milli Qəhrəmanımızsınız. "Qarabağ Azərbaycandır!" deyib bizi Qələbəyə doğru apardınız. Mən Sizi çox sevirəm və qürur hiss keçirirəm ki, azərbaycanlıyam, Siz isə Azərbaycanın Prezidentisiniz. Şanlı Ordumuz qazandığı qələbələr məni də böyüyəndə hərbçi olmağa ruhlandırır. Bu zəfəri bizə yaşatdığınız üçün Sizə minnətdaram, cənab Prezident. Mən Sizinlə və şanlı Ordumuzla fəxr edirəm".

Culfadan Nahid Babayev yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi həyata keçirdiyiniz uğurlu siyasət münasibətilə təbrik edirəm. 30 ilə yaxın bir müddətdə ev-eşiyindən didərgin düşmüş 1 milyondan çox məcburi köçkün Sizin və rəşadətli Ordumuzun hünəri sayəsində öz yurd-yuvasına qayıdacaq. Cənab Prezident, Sizin çıxışlarınızı və verdiyiniz müsahibələri dinlədikcə biz daha da qürrələnirik. Fəxr edirik ki, bizim güclü Liderimiz və qüdrətli Ordumuz var. Allah Sizi və hazırda cəbhəboyu inamla irəliləyən qəhrəman əsgərlərimizi qorusun! Allah amanında. Qarabağ Azərbaycandır!".

Füzuli sakini Rəhman Rüstəmov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bütün ailə üzvlərim adından Sizə dərin minnətdarlığımızı bildirirəm. Doğma Füzulimizin hər qarışının artıq azad olunduğunu düşündükcə qəlbimiz dağa dönür. Hörmətli Ali Baş Komandan, Azərbaycanın işğal olunmuş torpaqlarını murdarlardan təmizlədiyiniz üçün Sizə canımız və qanımızla borcluyuq. Eşq olsun Prezidentimizə!"

## Kürşad Zorlu: Azərbaycanın İranla dövlət sərhədinə nəzarəti tam bərpa etməsi çox mühüm hadisədir



Azərbaycan Silahlı Qüvvələri işğal altındakı torpaqları terrorçu və quldur erməni dəstələrindən təmizləməklə bütün region ölkələri üçün ortaq təhlükəni aradan qaldırır. Bu mənada, Zəngilanın Ağbənd qəsəbəsinin işğaldan azad olunması ilə Azərbaycanın İranla dövlət sərhədinə nəzarəti tam bərpa etməsi strateji əhəmiyyətli məsələdir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Bozok Universitetinin dekanı, professor Kürşad Zorlu bildirib.

Yaxın Şərqdəki münaqişə bölgələrinin Türkiyə kimi İran üçün də ciddi təhlükə mənbəyi olduğunu diqqətə çatdıran professor deyib ki, heç bir normal dövlət istəməz ki, onun sərhəd qonşuluğunda münaqişə ocağı olsun. Bu baxımdan bu mühüm hadisə İran üçün də önəmlidir. Azərbaycanın zəngin təbii sərvətlərə və böyük resurslara malik olduğunu diqqətə çatdıran professor əminliklə bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası bütün Qafqaz bölgəsi üçün yeni bir sosial-iqtisadi mənzərə yaradacaq.

# Vicay Colli: Hindistan Azərbaycanla həmrəydir

***Hindistanın hakim Bharatiya Canata Partiyasının rəhbər üzvü, İCAPP Daimi Komitəsinin üzvü doktor Vicay Colli Baş nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədova, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda Azərbaycanın apardığı mübarizə ilə həmrəy olduğu barədə məktub göndərib.***

Məktubda qeyd olunur ki, sizin İCAPP Daimi Komitəsinin üzvü kimi mənə yolladığınız və Ermənistanın siyasi və hərbi rəhbərliyinin dinc vətəndaşlarımıza qarşı insanlıq əleyhinə cinayətləri barədə məlumatlandıran məktubunuzu almışıq.

Doktor Vicay Colli məktubda bildirir: "Məktəblilər də daxil olmaqla 60 mülki şəxsin ölümünə, 250-dən artıq insanın yaralanmasına, 2000-dən artıq evin dağıdılmasına səbəb olan cinayətkar qəzəb doğurur və qeyri-insanidir.

Bu cür qəddar əməllər insanlığa qarşı cinayətdir. Razılaşırıq ki, bu əməllər beynəlxalq hüququn bütün norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını və Əlavə Protokollarını, həmçinin, 10 oktyabr 2020-ci ildə qüvvəyə minən humanitar atəşkəsin prinsiplərini pozur.

Biz Ermənistan hərbçiləri tərəfindən mülki əhaliyə qarşı bu cür terrorçu hücumları pisləyirik. Yeni Azərbaycan Partiyası ilə həmrəyliyimizi ifadə edirik." Qeyd edək ki, doktor Vicay Colli Hindistanın hakim Bharatiya Canata Partiyasının Tripura ştatı departamentinin rəhbəri, sonra isə BJP-nin xarici əlaqələr üzrə məsul şəxsi olmuşdur. O hal-hazırda partiyada rəhbər şəxs, eyni zamanda BJP-nin təmsilçisi kimi İCAPP Daimi Komitəsinin üzvüdür.

# Almaniya portalı: Ermənistan hökuməti alman deputatların Dağlıq Qarabağa səfərindən təbliğat məqsədləri üçün istifadə edir

Almaniyanın "TAZ" xəbər saytında "Millətçilər millətçilərlə görüşürlər" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Almaniyanın "AfD" partiyasının Dağlıq Qarabağa nümayəndə heyəti göndərməsindən bəhs olunur. Bildirilir ki, "AfD" partiyası guya xristian Qərbi Dağlıq Qarabağdakı İslam istilasından qorumaq istəyir. Bu mövqe hər zaman "AfD"nin mahiyyətinin tərkib hissəsi olub. Halbuki, xristian Ermənistan ilə müsəlman Azərbaycan arasındakı müharibə dini məzmunda deyil. Belə ki, müharibənin dinlə heç bir əlaqəsi yoxdur. Məsələyə aydınlıq gətirmək üçün tarixi kitablara nəzər salmaq kifayətdir.



Abo | Genossenschaft | taz zahl ich | Shop | Info | Veranstaltungen | Panter Preis | weitere | Hilfe

taz — POLITIK ÖKO GESELLSCHAFT KULTUR SPORT BERLIN NORD WAHRHEIT — suchen ...

AfD-Delegation reist nach Bergkarabach

**Nationalisten treffen Nationalisten**

Die AfD will in Bergkarabach das christliche Abendland gegen eine islamische Invasion verteidigen. Dabei hat der Konflikt mit Religion nichts zu tun.

Die AfD-Delegation um auf einem Soldatenfriedhof in Stepanakert — Foto: reuters

Politik / Asien — 20. 10. 2020

KOMMENTAR VON BARBARA OERTEL
Ressortleiterin Ausland

Geboren 1964, ist seit 1995 Osteuropa-Redakteurin der taz und seit 2011 eine der beiden Chefs der Auslandsredaktion. Sie hat Slawistik und Politikwissenschaft in Hamburg, Paris und St. Petersburg sowie Medien und interkulturelle Kommunikation in Frankfurt/Oder und Sofia studiert. Sie schreibt hin und wieder für das Journal von amnesty international. Bislang meidet sie Facebook und Twitter und weiß auch warum.

THEMEN
#AfD #Andreas Kalbitz #Armenien

Müəllif diqqətə çatdırır ki, Sovet İttifaqının "mirası" olan münaqişə sərhədlər və ərazilər ilə bağlıdır. Andreas Kalbits kimi sağçı millətçilərin Dağlıq Qarabağa səfəri təəccüb doğurmur və bu, onun bölgəyə ilk səfəri deyil. Eyni zamanda, "AfD" partiyası Ermənistanın "Adekvad" qrupu ilə sıx münasibətlər saxlayır. Ermənistan hökuməti isə alman deputatların Dağlıq Qarabağa səfərindən öz təbliğat məqsədləri üçün istifadə etməyə cəhd göstərir.

# Soros İrəvanla Moskvanın arasını necə vurur?

## *Astra Militarium hərbi-siyasi Telegram kanalının rəhbəri Komissar Yarrik maraqlı məqamlara toxunub və mümkün proqnozlar irəli sürüb*





***Sirr deyil ki, Ermənistanın mövcud hakimiyyətinin əsaslarını başda ölkənin baş naziri Nikol Paşinyan olmaqla sorosçular təşkil edir. Məhz milyarder Corc Sorosun güclü dəstəyi ilə Ermənistandakı əvvəli Serj Sarqsyan hakimiyyətini "məxməri inqilab" adı altında küçələrdə dəyişməyə müvəffəq olmuş jurnalist Nikol Paşinyan bu gün yenə də Sorosun təsiri altında öz ölkəsini və xalqını açıq-aşkar ölümə doğru sürükləməkdədir davam etməkdədir - Dağlıq Qarabağ münaqişəsini yenidən qızışdırmaq, qan tökmək və s. vasitələrlə...***







Artıq bu barədə yalnız biz deyil, xarici medialar da yazır, müxtəlif və əsaslı şərhlərlə məsələnin daha da dərinliklərinə vararaq, gerçəklikləri ortaya çıxarırlar. SİA xəbər verir ki, sözügedən hadisələrlə bağlı Astra Militarium hərbi-siyasi Telegram kanalının rəhbəri Komissar Yarrik maraqlı məqamlara toxunub.

"Cənubi Qafqazda və Dağlıq Qarabağda situasiyanın mürəkkəbləşməsi Ermənistanda partlayış vəziyyətə gətirib-çıxara bilər", deyə qeyd edən Yarrikə görə, məhz bu ölkədəki radikal müxalifət hökumətdən Rusiya ilə münasibətləri birtərəfli qaydada pozmağa çağırışlar edirlər. Bu kampaniyaya başçılığı isə "Sasna Srer" partiyasının ideoloqlarından və rəhbərlərindən biri - Qaregin Çuqaszyan edir. Xatırladaq ki, "Sasna Srer" həmin təşkilatdır ki, 2016-cı ildə İrəvanın polis alayına hücum edərək, terror aktı həyata keçirmişdi. Orada toplaşanların əsas tərkibi isə birinci Qarabağ müharibəsinin iştirakçılarıdırlar. Bundan əlavə, Çuqaszyan Soros Foondunun açıq "təsir agentidir" və "demokratiya naminə" Ermənistanda amerikalıların qrantlarının paylanmasına nəzarət edir.

Beləliklə, Dağlıq Qarabağ müharibəsi fonunda İrəvanın siyasi-ictimai kuluarlarında nələrin baş verdiyini, Ermənistan rəhbərliyinin Sorosun bayrağı altındakı qarant yeyintilərini, ölkədaxili parçalanmaları təhlil edən Komissar Yarrik eyni zamanda Türkiyə və Azərbaycanın bu vəziyyətdə hansı müvafiq addımlar atdıqlarını da şərh edib:

### Müharibə fonunda Ermənistandakı vəziyyət

Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsi fonunda İrəvanda qeyri-sağlam proses gedir və Türkiyə Azərbaycanı dəstəkləyir. Ermənistandakı bir sıra siyasətçilər və ekspertlər ölkədəki mövcud hakimiyyətin xarici siyasətində yürütdüyü vektorun dəyişilməsi vacibliyindən danışırlar. Tamamilə yanlış iddialara əsaslanan arqumentlər isə belədir: Münaqişənin qızışmasında guya Rusiyanın təqsirkar olmasına daha bir səbəb onun "Türkiyənin Cənubi Qafqazda aqressiv siyasət aparmasına və Azərbaycanı silahlandırmasına" şərait yaratmasıdır.

Bənzər iddialar Ermənistanın rəsmi mövqeyi ilə üst-üstə düşmür - İrəvan dəfələrlə bəyan edib ki, Rusiya Federasiyası həm müttəfiq kimi, həm də Minsk qrupunun həmsədr ölkəsi olaraq üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir. Ancaq buna baxmayaraq, digər tərəfdən, təxribatçı çıxışlar davam edir.

Bütün bunların alternativi olaraq, siyasilər orientasiyanı Vaşinqtona və NATO-ya tərəf dəyişdirməyi təklif edirlər. Yəni ABŞ və onun "təsir agentləri" Dağlıq Qarabağdakı münaqişənin artdığı zaman bütünlüklə bu cür ssenariyə gedə bilərlər.

Yarrik xatırladır ki, o daha əvvəllər RAND strateji araşdırmalar mərkəzinin hesabatında bu barədə yazıb. Belə ki, 2019-cu ildə analitiklər İrəvanı Moskva ilə əlaqələrini pozmağa çağırdığı barədə qeydlər ediblər.

"ABŞ Ermənistanı inandırmağa çalışa bilər ki, bütünlüklə NATO-nun orbitinə çıxsın. Əgər ABŞ bu siyasətdə üstünlük əldə edərsə, Rusiya Gümrüdəki hərbi bazasından və 2044-cü ilə qədər icarəyə götürdüyü İrəvan yaxınlığındakı hərbi təyyarə bazasından çıxa və Cənub hərbi dairəsinə daha çox resurslarını cəmləşdirə bilər", analitik kitabda yazılıb.

### Maraqlı personaj - "Sasna Srer" partiyasının rəhbərlərindən və ideoloqlarından biri Qaregin Çuqaszyan oldu

Bir il sonra Cənubi Qafqazda qeyri-sabitlik yarandıqdan sonra Ştatlar özünü Ermənistanla Rusiyanın münasibətlərini pozmağa yönəlmiş təbliğat kampaniyasına tərəf çevirdi və bu məqsədi önə çəkən ən fəal spiker kifayət qədər maraqlı personaj - "Sasna Srer" partiyasının rəhbərlərindən və ideoloqlarından biri Qaregin Çuqaszyan oldu. "Sasna Srer"in polis alayına qiyam məqsədi daşıyan hücumu zamanı üç nəfər ölmüş, onlarla hüquq mühafizəçisi isə yaralanmışdı.

Xatırladaq ki, həmin vaxt silahlı "Sasna Srer" İrəvanın post-patrul alayının binasını 2016-cı ilin 17-30 iyul tarixlərinə qədər girovda saxlamışdı. 30 iyulda isə qiyamçılar bütün girovları azad edərək sonradan təslim oldular. Polis alayını giriv götürməyə dair üç hissəli cinayət işi indiyə qədər məhkəmədə baxılmaqda davam edir.

Erməni KİV-lərinin məlumatına görə, Çiqaszyan alayı ələ keçirmiş silahlı qrupu koordinasiya edib və terrorçuları şəxsən verbovka edərək, ruhlandırıb. Ermənistanın Milli Təhlükəsizlik Xidməti onun izinə düşsə də, o ölkədən qaçıb. İki il qaçaq düşdükdən sonra Çiqaszyan yenidən İrəvanda görünüb. Bu həmin vaxt idi ki, artıq Nikol Paşinyan hakimiyyətdə gəlmişdi. Məhz həmin zaman o "Sasna Srer"lə əlaqəyə girdi.

### Çuqazsyan Sorosun pulları ilə qrantlar yeməyə başlayıb və özünəməxsus davranış xəttini tutub

Həmin erməni mənbələrinin digər məlumatlarına görə Çuqaszyanın Ermənistandakı Soros fondu ilə bağlılığı var. 2019-cu ildə fondun ofisi yaradılarkən o filialın direktorlar şurasının sədri olub. Çuqazsyan Sorosun pulları ilə qrantlar yeməyə başlayıb və özünəməxsus davranış xəttini tutub. Nəticədə 2019-cu ilin dekabrında "Sasna Srer" partiyasının rəhbərliyi bəyan edib ki, artıq Paşinyan hökumətini dəstəkləməyə son qoyur və növbədənkənar parlament seçkilərinin keçirilməsi tələbi ilə radikal müxalifətə keçir.

### Adıçəkilən Telegram kanalı davam edir:

Cənubi Qafqazdakı vəziyyət sürətlə inkişaf edir və bu əsnada Paşinyan hökumətinin mövqeləri ciddi şəkildə laxlaya bilər. Bütün bunlardan nəticə çıxararaq ehtimal etmək mümkündür ki, hadisələrin növbəti inkişaf variantı "Sasna Srer"in ölkədə növbəti "rəngli inqilab" etməsi ilə davam edə bilər.

Birincisi. Müxalifət üzvləri İrəvanda "dərhal Vaşinqtonla dialoqa gedib, Azərbaycanla Türkiyənin "silahlı aqressiyasının" (dırnaqlar bizimdir-R.R.) dayandırılması üçün antihökumət çıxışlarına başlayırlar - mümkündür ki, ölkə parlamentinin və Rusiya səfirliyinin binaları qarşısında.

İkincisi. Əgər bu tələblər yerinə yetirilməzsə, aksiyaçılar Paşinyan hökumətinin dərhal istefa verməsini tələb edəcəklər.

Üçüncüsü. "Slühmeramlı aksiyaçılarla" yanaşı, Rusiyanın Ermənistandakı hərbi bazaları blokadaya alınacaq. Əsaslı etirazı təsirli etmək üçün bu elementə paytaxtın müxtəlif ali təhsil müəssisələrinin tələbələrindən istifadə ediləcək. Necə ki, eyni mənzərə Kiyevdə, Bişkekdə, eləcə də həmin Ermənistanda 2018-ci ildə yaşanmışdı.

"Sasna Srer" partiyası iştirakçılarının radikal baxışlarını nəzərə alarsaq, bu zaman polis gücləri ilə qarşıdurmalar, itaətsizliklər də gözlənilə bilər. Necə ki, dörd il əvvəl İrəvanda eyni hallar baş vermişdi.

### Ankaranın Vaşinqtonun, ya da Brüsselin əmri ilə hər hansı fikrindən imtina etməsinə ümid etmək sadəlövhlük olardı

İndi yalnız ümid etmək olar ki, mövcud hakimiyyət və Ermənistanın hüquq-mühafizə orqanları situasiyanı diqqətlə izləyir və bu cür ssenarinin baş verməsinə imkan yaratmayacaq. Vəziyyətin daha da pisləşməsi, xüsusilə Rusiya ilə münasibətlərin pozulması Ermənistan üçün kritik zərbə ola bilər. Bu kimi amillər isə göstərir ki, Türkiyə əl-qolunu daha da açıq və artıq rahat şəkildə Azərbaycana silahlı qüvvələrini göndərə bilər. Ankaranın Vaşinqtonun, ya da Brüsselin komandası ilə hər hansı fikrindən imtina etməsinə ümid etmək sadəlövhlük olardı. Belə ki, müxtəlif çağırışlar, tələblər iki NATO ölkəsinin - Türkiyə ilə Yunanıstanın Şərqi Aralıq dənizindəki konfrontasiyasını bir dəqiqəliyə olsa belə dayandıra bilmədi. Əgər İrəvandakı qarışıqlıq nəticəsində Ermənistan heç nə edə bilməzsə, bu zaman rəhbərlik iradəsini itirə və Dağlıq Qarabağdakı münaqişəyə nəzarətini buraxa, Ankara isə bütün güclərini tətbiq etməklə Cənubi Qafqazdakı platsdarmı ələ keçirmək imkanını əldə edə bilər.

**Rövşən RƏSULOV**

# Qadın "hərbiçilərin" Qarabağa göndərilməsi Ermənistan hakimiyyətinin çirkin niyyətinin ifadəsidir



*Milli Məclisin Ailə,Qadın və Uşaq Məsələləri üzrə Komitənin sədri, professor Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi*

**- Ermənistan silahlı qüvvələri həm hərbi təxribat törədir, həm də humanitar atəşkəs rejimini kobud surətdə pozur. Cəbhə bölgəsindən uzaqda yerləşən şəhər və rayonlara raket zərbələri endirir. Sizin fikrinizcə buna səbəb nədir?**

- 27 ildir ki, BMT-nin Qətnamələri kağız üzərində qalıb. Bizim sülhsevər xalqımız ötən müddət ərzində aparılan danışıqlara inanır və səbr göstərirdi ki, torpaqlarımız sülh yolu ilə geri qaytarılacaq. Lakin biz danışıqların mənasız olduğunu müşahidə edirdik. Ermənistanın baş nazirinin "Qarabağ Ermənitandır" deməsi isə danışıqların demək olar ki, birtərəfli qaydada dayanmasına səbəb oldu. Xüsusilə də, həmsədr ölkələrdən bəzisinin açıq - aşkar işğalçının tərəfində durması, haqsız olduğu halda onu müdafiə etməsi əlbəttə ki, məsələnin konstruktiv həll ediləcəyinə inamı daha da azaldır. Artıq elə bir vəziyyət yarandı ki, işğalçı Ermənistan rəhbərliyi Azərbaycana qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başladı, bəyanatlar verdi.

Sentyabrın 27-dən başlayaraq Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan ordusunun əks - hücüm əməliyyatı nəticəsində kəndlərimiz, ərazilərimiz, Suqovuşan, Hadrut, Cəbrayıl, Füzuli, Zəngilan, xüsusi strateji əhəmiyyətə malik olan Xudafərin körpüsü, Mincivan və Ağbənd qəsəbələri azad olundu. Döyüş meydanında uduzan ermənistanın siyasi-hərbi rəhbərliyi silahları dinc əhaliyə, mülki obyektlərə yönəldir. Həmçinin, iki dəfə oktyabrın 10-u və 17-də humanitar atəşkəsin tətbiq olunması ilə bağlı razılığa baxmayaraq, terrorçu ermənistan həm cəbhə boyu yerləşən şəhər, rayon və kəndlərimizi, həm də döyüş bölgəsindən tamamilə kənarda yerləşən ərazilərə, rayon və şəhərlərə (Bərdə, Mingəçevir, Ağcəbədi, Yevlax, Gəncə, Xızı, Qəbələ, Kürdəmir, Siyəzən). Danışıqalar və atəşkəs üçün yalvaran Ermənistan yenə də öz mənfur, çirkin, cinayətkar xislətindən əl çəkmir, silahı dinc əhaliyə, müki və strateji obyektlərə istiqamətləndirir. Bunların sırasında daha dəhşətlisi Gəncədə törədilən vəhşilikdir. Ümumiyyətlə, terror aktlarında həlak olan hər insan şəhiddir! Allah şəhidlərə rəhmət eləsin, onların yaxınlarına baş sağlığı verirəm! Yaralılara isə tezliklə sağalmalarını arzu edirəm! Bu vandalizmdir və Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha sübut edir. Erməninin insanlığa sığışmayan, vəhşi hərəkətlərini Qaradağlıda, Ballıqayada, Xocalıda əyani şəkildə görmüşük! Kriminal ermənistan dövləti beynəlxalq hüququn norma və prinsiplərə əməl etmir. Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cı il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarına və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Buna dünya ictimaiyyəti və BMT-nin üzv dövlətləri tərəfindən layiqli qiymət verilməlidir. Düşmən şəhər və kəndlərimizi atəşə tutmaqla, münaqişənin gedişini dəyişmək, onu daha da genişləndirmək istəyir. Ermənictanın baş nazirinin taktikası çox sadədir: o ölkəmizin hətta təmas xəttində yerləşməyən rayon və şəhərlərinə, kəndlərə raket zərbələri yağdırmaqla, dinc əhalini hədəfə almaqla Azərbaycanı Ermənistandakı hərbi hədəflərə cavab zərbəsi vurmasını gözləyir. Bununla da özünü " qurban", "yazıq"kimi göstərməklə Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyir. Buna görə də Təhlükəsizlik Müqaviləsi Təşkilatı bu terrorçu, heç bir hüquqa məhəl qoymayan Ermənistanın bu qurumda təmsilçiliyinə yenidən baxılmalıdır. Xislətində riyakarlıq, terrorçuluq, dağıdıcılıq kimi mənfi elementlər olan bu ölkə təkcə Azərbaycan deyil, həm də digər ölkələr üçün də hər zaman təhlükəli ola bilər.Ümumiyyətlə, bu təşkilat öz Nizamnaməsini yenidən nəzərədn keçirməli və belə bir bənd əlavə etməlidir ki, üzv dövlətlərdən biri terror aktları həyata keçirirsə, hərbi cinayətlər törədirsə onun təşkilatdan çıxarılmalıdır.

Biz bunu bilirik, lakin bütün dünya ictimaiyyəti bir daha əyani şəkildə görsün ki, kriminal ermənistan rəhbərliyi sülh istəmir, münaqişənin danışıqlar yolu ilə həll edilməsinə tərəfdar deyil. Bu hadisələr bir daha təsdiq edir ki, dövlət siyasətinin əsas mahiyyətini terrorizm təşkil edən Ermənistan regionun üçün böyük təhlükədir. Qəhrəman Gəncə sakinləri, eləcə də bütün xalqımız ruhdan düşmür, Ali Baş Komandana, dövlətimizə, ordumuza inanır. Bu gün xalqımız hər bir mənada sınaq qarşısındadır, hər birimiz düşmənin məqsədini yaxşı anlayırıq. Hazırda uduzmaqda olan Ermənistan dinc əhalini atəşə tutmaqla xalqımızın inamını, mübarizə əzmini qırmağa can atırlar. Lakin bu da bir həqiqətdir ki, bizim qələbə əhval-ruhiyyəmizi qıra bilməyəcəklər.

**- Qarabağın statusu tarix nə deyir?**

- Əgər biz tarixə baxsaq görərik ki, sənədlərə və siyasi hüquqa əsasən artıq Dağlıq Qarabağ Muxtar Vilayəti qurumu artıq arxivdə qalıb. Tarixi sənədlərə əsasə 1923-cü il iyulun 7-də Azərbaycan SSR Sovetləri Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır.

1981-ci il iyunun 16-da isə Azərbaycan SSR Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanun qəbul edib və muxtariyyətin səlahiyyətlərində yeniliklər edilib. Dağlıq Qarabağdakı muxtariyyətin sonuncu rəsmi statusu da bu qanunla müəyyənləşib. 1987-ci ildə Ermənistan və Azərbaycan SSR arasında Dağlıq Qarabağ münaqişəsinin başlanmasının ardından, bu münaqişə 1991-ci ilin sonuna tam miqyaslı müharibəyə çevrilmişdir.

1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali sovetləri qarşısında vəsatət qaldırmaq barədə" qərar qəbul etdi.

Bunun ardınca, 1989-cu ilin noyabr ayında SSRİ Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin muxtariyyətliyinin ləğv edilib birbaşa Azərbaycan Sovet Sosialist Respublikasına qatılmasına dair qərar qəbul etmişdir. Lakin 1989-cu ilin dekabr ayının 1-də Ermənistan Sovet Sosialist Respublikası Ali Soveti və Qarabağ Milli Şurasının birgə iclası həmin qərarı əsassız hesab edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanla birləşməsini açıqlamışdır.

1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olunub. Həmin gün müstəqil Azərbaycanın parlamentinin qərarı ilə həm 1923-cü il iyulun 7-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsinin qəbul etdiyi dekret, həm də 1981-ci il iyunun 16-da Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanun qüvvədən salınıb və onun ərazisi qonşu Xocavənd, Tərtər, Goranboy, Şuşa və Kəlbəcər inzibati rayonları arasında bölüşdürülüb. Bu qanunlar bir daha sübut edir ki, belə bir vilayət yoxdur.

Digər bir fakt isə 10 dekabr 1991-ci ildə azərbaycanlıların boykot etdiyi və yalnız ermənilərin qatıldığı referendum nəticəsinə görə "müstəqillik qərarı" alınmış və 6 yanvar 1992-ci ildə də "müstəqillik" rəsmən elan edilmişdir. Lakin Ermənistan respublikası da daxil olmaqla, heç bir ölkə və ya beynəlxalq qurum qondarma rejimin müstəqilliyini tanımamışdır.

Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilər BMT-də daxil olmaqla, bütün dünya dövlətləri tərəfindən Azərbaycanın ərazi kimi tanınmışdır. Lakin buna baxmayaraq bu torpaqlar hələ də işğal altındadır.

1988-1994-cü illər ərzində Qarabağda azərbaycanlı yerli əhaliyə qarşı davam edən etnik təmizləmə prosesi nəticəsində hal-hazırda Qarabağda bir nəfər də azərbaycanlı yaşamır. Bu da bu regionda azərbaycanlılara qarşı aparılan etnik təmizləmə prosesinin ən bariz sübutudur. Statistikaya nəzər yetirsək görərik ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla, işğal edilmiş ərazinin real əhalisi təqribən 65 min nəfərdir. Bu, böyük icma deyil. Lakin müharibədən əvvəl, 1990-cı illərin əvvəlində Dağlıq Qarabağda, əsasən Şuşada, həmçinin Xankəndidə, ermənilərin törətdiyi soyqırımının qurbanı olan Xocalı şəhərində və bir çox başqa şəhərlərdə 40 mindən çox azərbaycanlı yaşayırdı. Yəni əhalinin 70 faizindən çoxu azərbaycanlı olub.

Keçən bu müddət ərzində Azərbaycan sülh yolu ilə torpaqlarımızın işğaldan azad olunacağını ümid edirdik. Lakin hadisələrin gedişi onu göstərdi ki, qarşı tərəf bu sülhyaratma prosesindən yayınır, prosesə manelər yaradır. Və bu gün artıq vəziyyət başqadır, hazırda BMT-nin qətnamələrinin icrasını Azərbaycan özü yerinə yetirməyə yetirir. Oktyabrın 21-də Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dağlıq Qarabağda refendumun keçirilməsi ilə bağlı cavabı da, çox qətidir : "heç bir referendum olmayacaq. Biz bununla heç vaxt razılaşmayacağıq". Xalqların öz müqəddəratını təyinetməsi beynəlxalq hüququn mühüm amillərindən biridir. Lakin bu fakt heç bir dövlətin ərazi bütövlüyünü pozmamalıdır.

**- Sizin fikrinizcə Azərbaycanı qələbəyə aparan yola nəzər yetirsək, əsas hansı məsələləri qeyd edərdiniz?**

- Bu günkü qələbənin əsasında bizim ölkəmizin inkişafı, sabitliyi dayanır. Biz gələcəyə böyük inamla baxırıq, niyə görə? Yaxın tarixə nəzər salsaq, nə görürük? Dağıdılmış, bütün əlaqələri kəsilmiş bir ölkə. Tarixi missiyanı öz üzərinə götürərək Ümummilli Lider Heydər Əliyev Azərbaycanı bütün çətin sınaqlardan şərəflə çıxarmışdır. Təməli o illərdə qoyulmuş siyasət Cənab Prezidentmiz İlham Əliyev tərəfindən daha da gücləndirilmişdir. Ölkəmiz dünya miqyasında iqtisadi cəhətdən ən rəqabətqabiliyyətli ölkələr sırasında 35-ci yerdədir. "Əsrin kontraktı"nın daha da səmərəli şərtlərlə 2050-ci ilə qədər uzadılması, eləcə də, enerji, neft-qaz sahəsində nəhəng, iri miqyaslı layihələrin rellaşması ölkəmizin strateji əhəmiyyətini daha da artırmışdır. Azərbaycan nəinki öz xalqı, həm də qonşu ölkələr, bütövlükdə isə dünya üçün önəmli olan layihələr icra edir. Azərbaycan bütün çətinliklərə baxmayaraq, öz inkişaf tempini qoruyub saxlamaqda davam edir. BMT-nin "Dayanıqlı inkişaf indeksi" ilə bağlı yeni hesabatda Azərbaycan keçən ilə nisbətən irəliləyərək 54-cü yerdə qərarlaşıb. Bu göstəriciyə görə Azərbaycan regionda liderdir.

Prezident İlham Əliyev dəfələrlə və aydın şəkildə deyirdi ki, "Müharibənin birinci mərhələsi başa çatıb və biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı istənilən yolla işğalçılardan azad edək". Bunun üçün ilk növbədə iqtisadi imkanlar artmalı idi. Ölkə başçısı bütün hallarda, hətta dərin iqtisadi böhran dövründə, də bütün gücü iqtisadi inkişafa, sosial və infrastruktur layihələrinə, investisiya proyektlərinə , qeyri-neft sektorunun inkişafına yönəltdi. Həyata keçirilən Düzgün iqtisadi strategiya nəticəsində "İqtisadi inkişafın Azərbaycan modeli" yarandı. Azərbaycanın dinamik iqtisadi inkişafı ölkənin hərbi qüdrətinin daha da artmasına səbəb olmuşdur.Ordumuzun maddi-texniki təminatı gücləndirilmişdir. Biz bir sıra ölkələrdən silah almaqla yanaşı, özümüz də silah istehsal edirik. İxtisaslı hərbi kadrlar yetişdirilmişdir. Bu gün dünyanın bir çox tanınmış hərbi ekspertləri ordumuzun əməliyyatlarını yüksək qiymətləndirir. Azərbaycan ordusu MDB məkanında ikinci, dünyada isə dünyada 50 ən güclü ordu sırasındadır. Əlbəttə ki, digər mühüm şərt diplomatik müstəvidə uğur qazanmaqdır. Bununla bağlı, qısa olaraq, qeyd etmək lazımdır ki, Azərbaycan son illər bu sahədə xeyli nailiyyət əldə edtmiş və beynəlxalq nüfuzu artmışdır. İkitərəfli və çoxtərəfli münasibətləri daha da təkmilləşdirmişdir. BMT-dən sonra ikinci ən böyük beynəlxalq qurum sədrlik edir, 5 mühüm layihə icra edir.

Bu gün xalq- dövlət-ordu birliyi var. Bu gün hər kəs yaşından, cinsindən, milli, siyasi, dini mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı cənab Prezidentin ətrafında sıx birləşib. Hətta ölkədən kənarda yaşayan həmvətənlərimiz, həqiqətin, ədalətin tərəfdarı olan digər ölkələrin tanınmış mütəxəssisləri, politoloqları, tarixçiləri, adi vətəndaşlar da bizi dəstəkləyir. Xüsusilə, gənclərimiz sosial məkanda aktivdirlər, lakin biz bu fəallığı daha da artırmalıyıq. Bu gün hər kəs tam qələbəyə nail olmaq üçün, torpaqlarımızı bu mənfur terrorçulardan azad etmək üçün öz töhfəsini verir. Baxın, cəbhə bölgəsindən çox uzaqda yerləşən şəhərlərimiz, rayonlarımız, kəndlərimiz atəşə tutulur, raket zərbələri nəticəsində dinc əhali həlak olur, yaralanır, evlər, mülki obyektlər dağılır.

Lakin bu, insanlarımızı qorxutmur, mübarizə əhval-ruhiyyəsinə mənfi təsir göstərmir. Öz gündəlik həyatlarına davam edirlər, təsərrüfatla məşğul olur, işləyirlər, oxuyurlar- bunun özü də bir töhfədir, mübarizədir. Bu o deməkdir ki, düşmən bizi ruhdan sala bilməz, insanların arasında panika yarada bilməz, psixoloji təsir göstərə bilməz. Əksinə düşmən narahat olmağa başlayır, "hardandır, bu güc?-deyə fikirləşir və sarsılır". Cavab çox sadədir: Biz bu gücü, bu inamı cənab Prezident, Ali Baş Komandan İlham Əliyevdən, Birinci vitse-prezident Mehriban Əliyevadan, bütövlükdə dövlətimizdən, ordumuzdan, qəhrəman əsgərlərimizdən, vətən sevgisindən, birliyimizdən!

Ardı Səh. 12

# Qadın "hərbiçilərin" Qarabağa göndərilməsi Ermənistan hakimiyyətinin çirkin niyyətinin ifadəsidir

Əvvəli-Səh-11

**- Vətən müharibəsi bitdikdən sonra gələcəyi necə təsəvvür edirsiniz, regionu necə görürsünüz?**

- Son müsahihələrində cənab Prezident də bu məsələni qeyd edir ki, müharibə bitdikdən sonra yeni siyasi və geosiyasi vəziyyət yaranacaqdır. Hazırda Azərbaycan öz xilaskar missiyası ilə təkcə ölkəmiz üçün yox, həm də Cənubi Qafqaz regionu və qlobal miqyasda yeni tarix yazır. Azərbaycanın regional və qlobal proses və layihələrdə iştirakı daha da artacaqdır. Ölkəmizin iqtisadi imkanları güclənəcəkdir. Biz öz ərazi bütövlüyümüzü təmin etdikdən sonra da çox ehtiyatlı olmalıyıq. Tarix və təcrübə göstərir ki, ermənilər hər an təhlükə yarada bilərlər. Buna görə də bəzi məsələləri diqqətdən qaçırmaq olmaz:

Birincisi,Azərbaycanın sərhədlərində öz hərbi bazalarımızı yaratmalıyıq ki, təhlükəsizliyimiz təmin olunsun, başqa maraqların toqquşmasına imkan verməməliyik;

İkincisi, ermənilər törətdiyi hərbi cinayətlərə və terror aktlarına görə yerli və beynəlxalq səviyyədə məsuliyyət daşımalıdır. Müvafiq milli qanunvericilik aktlarının və beynəlxalq konvensiya və sənədələrin tələblərinə uyğun olaraq,həmçinin "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası və digər sənədlər əsasında cinayətkarlar mühakimə olunmalı, bütün hüquqa zidd əməllərinə görə təzminat ödəməlidir;

Üçüncüsü, bilirik ki, onlar həm ölkədə, həm də ölkədən kənarda yaşayan diplomatik nümayəndələrə, aktiv və tanınmış azərbaycanlılara və bütün soydaşlarımıza qarşı hər hansı terror aktı törədə bilərlər. Bu da tarixi faktlarla sübut olunub ki, onların terror təşkilatları belə cinayətlər edirlər. Bu çox ciddi məsələdir, təhlükəlidir;

Dördüncüsü, birgə yanaşı yaşamaq məsələsi. Əslində belə təcrübə var, lakin biz həmişə oyaq olmalıyıq, diqqət etməliyik. Ermənilərin bizə olan münasibətini hər zaman yadda saxlamalıyıq.

**- Ermənistan hakimiyyəti döyüşdə iştirak etmək üçün qadınları səfərbər edir. Sizin erməni qadınlarının müharibədə iştirakına münasibətiniz necədir?**

- Bu məsələyə bir neçə aspektdən baxa bilərik:

Birincisi, bu ermənistan üçün böyük bir demoqrafik problem yaradacaq. Onların genefondu daha da zəifləyəcəkdir. Bilirsiniz ki, Ermənistanda demoqrafik vəziyyət olduğca ağırdır, əhalinin sayı artmır, təbii artım ildən-ilə daha da aşağı düşür. Onsuz da az olan ermənilər daha da azalacaqdır.

İkincisi, hərbi əməliyyatlar zamanı yaralanan və ölən qadın hərbiçilərdən öz çirkin məqsədləri üçün istifadə etmək istəyirlər. Həmin qadınların guya dinc əhali olduğunu və Azərbaycan tərəfinin onlara qarşı silahdan istifadə etdiyini deyəcəklər. Bununla da Ermənistan hakimiyyəti beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək niyyətindədir.

Üçüncüsü, terrorçu ölkənin baş naziri Nikol Paşinyan qadınları səfərbər etməklə həm də Qarabağ cəbhəsində pərən-pərən olmuş erməni ordusunu ruhlandırmaq istəyir. Ancaq əlbəttə ki, bu alınmayacaq, çünki bizim rəşadətli ordumuzun gücünü bütün dünya görür.

Dördüncüsü, bu bir mesajdır, yəni Ermənistanda hətta erməni qadını da başqa ölkənin torpaqlarında vuruşmağa hazırdır. Bəli, tarixdə bir çox nümunələr var ki, qadınlar da əlinə silah alıb, kişilərlə bərabər vuruşublar. Lakin onlar öz torpaqlarının azadlığı uğrunda mübarizə aparıblar, başqa torpaqlara göz dikməyiblər. Bu siyasətə Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan başçılıq edir.

**- Bu ilin yay aylarında Anna Akopyan 15 erməni qadın hərbi təlimlərdə iştirak ediblər. Harada? Azərbaycanın Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuş ərazilərində. Kimə qarşı? Dinc əhaliyə, şərti düşmən olan azərbaycanlıya qarşı. Əgər Ermənistanda qadınlar da döyüşə, müharibəyə hazırlaşırlarsa, bu ölkənin sülh istəməsinə necə inanmaq olar?**

- Bir də azərbaycan qadınına baxaq, nə görürük, güclü, qorxmaz ana, sülhsevər qadın. O bilir ki, övladı müharibəyə gedir,yaralana bilər, şəhid ola bilər. Lakin onun övladı doğma torpağını qoruyur, işğaldan azad olunması üçün vuruşur. Onun övladı Vətənin bütövlüyü üçün qəhrəmancasına mübarizə aparır. Mən Sumqayıt şəhərinin millət vəkiliyəm. Vətən müharibəsində şəhidlərin dəfn mərasimində iştirak edirəm.Övladı şəhid olan ana-atalar, həyat yoldaşı şəhid olan xanımlar, ataları şəhid olan balalar çox təmkinlə, səbrlə "Vətən sag olsun!" deyirlər. O xalq xoşbəxtdir ki, torpağı uğrunda mübarizə aparmağı, həm qalib gəlməyi, həm də şəhid verməyi bacarır. Balası şəhid olan ana bu itkinin ağır olmasına baxmayaraq, özünü şah tutur, başını dik tutur, çünki oğlu qəhrəmandır, igiddir. Öz Prezidentinə, Ali Baş Komandanına inanır, güvənir. Eləcə də respublikanın Birinci-vitse prezidenti Mehriban Əliyeva hər gün çağırışlar, müraciətlər edir. Erməni terrorçularının törətdiyi dəhşətləri ürək ağrısı ilə qarşılayır, hər bir vətəndaşımıza qayğı ilə yanaşır, həm də bir ümid yaradır. Bu ümid hamımızın yaralarına məlhəmdir.

# Rauf Əliyev: Azərbaycanın Şanlı Ordusu "status-kvo"nu dəyişdi



"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusunun Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad olunması uğrunda apardığı zəfər yürüşü davam edir. Şanlı Ordumuz tərəfindən bu günə kimi Cəbrayıl şəhəri, Fizuli şəhəri, Zəngilan şəhəri, Hadrud qəsəbəsi və 95 kənd düşmən işğalından azad edilmişdir. Hər gün qəhrəman Ordumuzun cəbhədə əldə etdiyi yeni-yeni qələbələr haqqında məlumatlar əldə edirik". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rauf Əliyev deyib.

Deputat qeyd edib ki, müharibə eyni zamanda informasiya cəbhəsində gedir: "Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müharibə dövrü üçün müəyyənləşdirilən və həyata keçirilən siyasət düşmənə həm döyüş meydanında, həm də informasiya müharibəsində üstünlük qazanmağımıza şərait yaratmışdır. Cənab Prezident Ermənistanın 27 sentyabrdan Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlara başladığı vaxtan bu günə kimi dünyanın 17 ən məşhur televiziya kanallarına müsahibə vermişdir. 19 oktyabr 2020-ci il tarixdə cənab Prezident növbəti müsahibəni Rusiyanın tanınmış TASS informasiya agentliyinə vermişdir. Müsahibə vaxtı müxbirin Dağlıq Qarabağ ətrafında vəziyyətlə bağlı sualları cavablandıran cənab Prezident bildirmişdir ki, Azərbaycan üzərinə düşən öhdəlikləri yerinə yetirməyə həmişə hazırdır. Azərbaycan öz tərəfdaşları ilə əlaqələr çərçivəsində üzərinə götürdüyü öhdəliklərə sadiqdir. Həm əvvəldən, həm də münaqişənin nizamlanmasına dair danışıqlar prosesində həmişə beynəlxalq hüquqa, münaqişənin dinc yolla həllinə sadiqliyə, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanıb, həmişə öhdəlikləri yerinə yetirməyə çalışır və buna hazırdır. Ancaq Ermənistan tərəfi humanitar atəşkəsə əməl etmir. Ermənistan atəşkəs rejimini kobud surətdə pozur. Danışıqlardan heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirilib. Birinci hücumdan sonra, iki hücum olub, həlak olanlar və yaralananlar hədsiz çoxdur. Ermənistan növbəti dəfə atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik etdi. Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

R.Əliyev vurğulayıb ki, müxbirin "status-kvo" barəsində sualını cavablandırarkən Prezident bildirmişdir ki, "staus-kvo"nu Azərbaycan Ordusu pozub və bunu Rusiya, ABŞ və Fransa dövlət başçılarının dəfələrlə səsləndirdikləri bəyanatları, "status-kvo"nun qəbuledilməz olması barədə dövlət başçılarının səsləndirdikləri bəyanatları çərçivəsində etmişik: "Azərbaycan bu bəyanatları eşidib, lakin onların implementasiyasını görməyib. Buna görə Azərbaycan özü onu implementasiya etdi. Yəni, "status-kvo" yoxdur, təmas xətti yoxdur.

Muzdlular barədə sualı cavablandırarkən cənab Prezident bildirmişdir ki, Azərbaycanda muzdlular yoxdur, sadəcə ordusu var. Bu cür bəyanatlar təkcə Rusiya tərəfindən deyil, Fransa tərəfindən də səslənirdi, lakin indiyə kimi sözlərdən başqa heç bir fakt təqdim edilməyib. Azərbaycan bu yanaşmanı əsla qəbul etmir. Ehtiyatda olanlar sayılmazsa, Azərbaycanın nizami ordusunda 100 min döyüşçüsü var. Azərbaycan Ordusu həm döyüş meydanında, həm də texniki təchizat baxımından düşmən üzərində üstünlüyünü nümayiş etdirir. Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialı praktiki olaraq Azərbaycan ordusu tərəfindən məhv edilib. Rəşadətli Ordumuzun gücü hesabına tarixi ədalət bərpa olur. Şanlı Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı geri qaytarır. Demək olar ki, hər gün cənab Prezident, Ali Baş Komandan işğaldan azad olan yaşayış məntəqələrimiz haqqında xalqımıza xoş xəbərlər çatdırır. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tezliklə işğal altında olan bütün torpaqlarımız işğaldan azad olunacaq və Azərbaycan bayrağı Xankəndində, Şuşada və azad edilmiş digər yaşayış məntəqələrində dalğalanacaq".

## Erməni mayordan ermənilərə müraciət: "Uşaqları Qarabağa döyüşməyə buraxmayın"



Azərbaycan ordusuna təslim olmuş erməni zabit Ermənistan xalqına müraciət edib. SİA-nın məlumatına görə, ehtiyatda olan milis mayoru Edik Tonoyan 2018-ci ildə təqaüdə çıxıb. O, iki il ərzində Rusiyaya qazanc üçün getdiyini deyib: "2020-ci ildə mən koronavirusla əlaqədar Rusiyaya gedə bilmədim. Ermənistanda qalıb tikinti ilə məşğul oldum. Sentyabrın 27-də Azərbaycanla müharibə başlayanda məni oğlumla birgə tikintidən hərbi komissarlığa apardılar. Hərbi komissarlıqda razılaşdıq ki, oğlumun əvəzinə məni hərbi xidmətə göndərəcəklər və mən Ermənistan ərazisində xidmət edəcəyəm. Mən Qarabağa getmək istəmirdim, çünki bu, bizim torpaq deyil. Dedim ki, əgər zərurət yaranarsa Ermənistana görə döyüşməyə hazıram, Qarabağa görə yox".

## "Bitki örtüyünün 42, meşə sahəsinin isə 25 faizi işğal olunmuş ərazilərdədir"



Təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə həyata keçirilən kortəbii istismar nəticəsində bölgənin təbii sərvətlərinə, ətraf mühitinə, biomüxtəlifliyinə külli miqdarda zərər dəyib, qiymətli ağac və kol növləri ilə zəngin meşələrimiz məqsədli şəkildə məhv edilib. SİA xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib. O qeyd edib ki, landşaft müxtəlifliyi baxımından əlverişli olan həmin ərazilərdə işğala qədər 2000-dən çox ali bitki növü mövcud olub ki, bu da Azərbaycan florasının 42 faizini təşkil edir. Bölgədəki 50-yə yaxın fauna, 70-dən çox flora növü dünyanın, eyni zamanda, Azərbaycan Respublikasının "Qırmızı kitab"larına salınıb. Təəssüf ki, həmin növlərin hazırkı vəziyyəti barədə əlimizdə heç bir dəqiq məlumat yoxdur. Nazir müavininin sözlərinə görə, işğal olunmuş ərazilərdə rast gəlinən bitki növlərindən 20-si Azərbaycan areallı endem bitkilərdir. Həmin endem bitkilərin 7 növünə - Qarabağ zanbağı, Qarabağ güləvəri, Zəngilan gəvəni, Sağsağan gülxətmisi, Şuşa vələsi, Şuşa xaşası və Şuşa gəvəni yalnız Dağlıq Qarabağ ərazisində rast gəlinir.

Eyni zamanda, respublikamızın meşə ilə örtülü sahələrinin 25 faizi işğal altında olan ərazilərdə yerləşir və əldə olunan məlumatlara görə qiymətli meşələrin əksəriyyəti erməni vandalizmi nəticəsində məhv edilib: "İşğaldan azad olunmuş ərazilərdə aidiyyəti qurumlarla birgə genişmiqyaslı monitorinqlər aparılacaq, bölgənin ətraf mühitinə, təbii sərvətlərinə, landşaftına və meşələrinə, həmçinin bitki və heyvanat aləminə dəymiş ziyanın hərtərəfli qiymətləndirilməsi həyata keçiriləcək".

# News.Ru: İrəvanın Qarabağdakı prosesi dini qarşıdurma kimi qələmə vermə cəhdi uğursuzdur

*İqor Nikifirov: Qafqazda din faktoru: Vasitəçiləri cəlb etmək üçün atəşlə oynamaq qadağandır*

***Rusiyanın nüfuzlu informasiya agentliklərindən olan News.Ru Ermənistanın Qarabağdakı müharibəni dini zəmində təqdim etmə cəhdlərinin mahiyyəti və bunun əsassız və təhlükəli olduğunu ifşa edən məqalə dərc edib. Agentliyin analitiki İqor Nikifirov öz təhlilində bunu İrəvanın odla oynaması kimi xarakterizə edib. Yazını təqdim edirik...***

Ermənistan Rusiyanı Dağlıq Qarabağdakı münaqişəyə sürükləməyə çalışmağa davam edir. Şuşadakı bir xristian kilsəsinə zərər dəyməsindən sonra İrəvan Moskvanın xristian dəyərlərinin müdafiəçisi kimi nüfuzunu vurğulayaraq yeni- dini bir kart oynamağa başladı. Erməni tərəfi baş verənləri müsəlman və xristian dünyaları arasındakı qarşıdurma kimi təqdim etməyə çalışır, ancaq hadisələrin belə bir stereotip mənzərəsi tənqidlərə tab gətirmir.

Keçən həftə erməni tərəfi Azərbaycanı, BMT-nin 4 qətnaməsinə əsasən, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisi kimi tanınan ərazidə yerləşən Erməni Apostol Kilsəsi üçün əlamətdar yer olan Şuşadakı Müqəddəs Xristos Katedralını atəşə tutmaqda günahlandırdı. İrəvanın guya Suriyadan gətirilən sünni yaraqlıları ilə bağlı davamlı açıqlamaları ilə bir araya gəldikdə, bu ritorika, qarşıdurmada dini bir kök tapmaq cəhdinə bənzəyir.

Əvvəla, Şuşadakı məbədi vurmaq niyyətini sübut etmək mümkün deyil. Kilsə döyüş zonasındadır, buna görə ona təsadüfi mərminin zərər vurmasını istisna etmək olmaz. Eyni zamanda, Ermənistan nəinki cəbhəyə yaxın olan Tərtər şəhərinə, hətta Azərbaycanın dərinliklərində yerləşən Gəncə və Mingəçevir şəhərlərinə operativ-taktiki raket sistemləri ilə atəş etməkdən çəkinmir və bu da mülki şəxslərin ölümünə səbəb olur. Bu cür hərəkətlərin məqsədi aydındır-Bakını birbaşa Ermənistan ərazilərini vurmağa təhrik etmək, bu da İrəvana KTMT çərçivəsində Moskvanın köməyini tələb etmək üçün əsas verəcəkdir.

Bununla birlikdə, yalnız münaqişəni beynəlmiləlləşdirmə cəhdləri ilə deyil, eyni zamanda, inam amilindən istifadə etmək istəyi ilə əlaqəli digər vasitələrdən də istifadə etmək mümkün deyil. Qarabağda baş verənlər, erməni mətbuatı və lobbistləri tərəfindən Azərbaycan və Türkiyənin müsəlman birliyinin "qardaş xristian xalqı"na düşmənçilik və hətta bəzən sünni Türkiyənin şiə İrana qarşı apardığı bir mübarizə kimi təqdim olunur. Mütəxəssislər üçün bu tezislər absurd görünür: nüfuzlu rus İslam alimi Aleksey Malaşenkonun qeyd etdiyi kimi, "Qarabağ münaqişəsində şiələr və sünnilərin qarşı-qarşıya durma fikrinin müəllifinə daha ağıllı kitab oxumağı tövsiyə edilə bilər".

Dini amildən istifadə odla oynamaqdır, bu da müxtəlif narahat suallar yaradır. Həqiqətən, xristianlığa müraciət ediriksə, anlamalıyıq



ki, Erməni Pravoslav Kilsəsinin ruslarla münasibətləri kifayət qədər ziddiyyətlidir. Ermənistanda kilsə Monofizit olduğundan, yəni Məsihin ikili deyil, tək, ilahi və insani təbiətini tanıyır. Və bu, əsas ziddiyyətlərdən yalnız biridir. İlahiyyat doktoru, baş keşiş Oleq Davydenkov ermənilərlə "dogmatik dialoq" un çıxılmaz vəziyyətə gəldiyini etiraf edir.

Sakinlərinin 90%-dən çoxunun özlərini müsəlman kimi tanıdığını nəzərə alsaq da, Azərbaycan dünyəvi dövlət hesab olunur. Bakı, Azərbaycan, bütün konfessiyalara, o cümlədən xristian konfessiyalarına qarşı tolerantlığı ilə tanınır. 1998-ci ildə Rus Pravoslav Kilsəsinin Bakı və Xəzər Yeparxiyası yenidən quruldu və o vaxtdan bəri, Pravoslav mənbələrinə görə kilsələrin bərpası və bərpası sahəsində səlahiyyətlilərlə səmərəli əməkdaşlıq edilir.

Üstəlik, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyalarının mətbuat katibi Konstantin Pominov Ermənistan ordusu tərəfindən Tərtərdəki cənazə mərasiminin atəşə tutulmasına və nəticədə dinc insanların ölməsinə xüsusilə diqqət çəkərək, Azərbaycandakı dinc yaşayış yerlərinə edilən hücumları "vəhşilik" və "terror aktları" adlandırdı. Din xadimi, eyni zamanda erməni tərəfinin Şuşadakı bir məbədin atəşə məruz qalması barədə "qışqırmasına", ancaq Azərbaycan ərazisində dövlət vəsaiti ilə təmir edilmiş erməni məbədlərinin olduğuna tamamilə məhəl qoymamasına da diqqət çəkdi.

Unutmamalıyıq ki, Azərbaycanda praktik olaraq antisemitizm yoxdur. Sovet İttifaqının dağılmasından sonra sinaqoqların binaları bu ölkədəki yəhudilərə qaytarıldı. 2001-ci ildə Bakıdakı 2 Yəhudi qəbiristanlığında baş verən vandalizmdən sonra Azərbaycan hökuməti hadisəni hərtərəfli araşdırdı və yerlərin bərpası üçün vəsait ayırdı. Yəhudi icması da Qarabağdan olan qaçqınlara qayğı göstərmək üçün hökumət ilə sıx əməkdaşlıq edir.

Mütəxəssislər, İrəvanın dini ziddiyyətlər üzərində oynamaq cəhdlərinin təbliğat qaydalarına deyil, beynəlxalq hüquqa əsaslanaraq həll edilməli olan münaqişənin sülh yolu ilə həllini təxirə saldığını vurğulayırlar. Rusiya Xarici İşlər Naziri Sergey Lavrov, bu yaxınlarda hər iki tərəfi, ilk növbədə, sülh yolu ilə həll perspektivlərini öldürən qarşıdurma ritorikasından imtina etməyə çağıraraq bununla razılaşır.

***Tərcümə etdi - Elçin Bayramlı***

# Kommersant.ru: Ermənistanda hər kəs ümidini itirib



"Azərbaycan qoşunları hücumlarını davam etdirir və Laçın dəhlizini bağlamaqla bundan sonra tanınmamış, qondarma Dağlıq Qarabağ Respublikasının paytaxtı Xankəndinin ələ keçirilməsi zaman məsələsi olacaq. Ermənistanın baş naziri Nikol Paşinyan indiki mərhələdə məsələnin "diplomatik həll yolunun olmadığını" deyərək həmvətənlərini könüllülərə qoşulmağa çağırdı. Ancaq diplomatlar hələ də ümidlərini itirmirlər." SİA xəbər verir ki, bu barədə kommersant.ru işıqlandırdığı məqalədə qeyd edir.

Nəşr qeyd edir ki, Azərbaycan qoşunları Dağlıq Qarabağa irəliləməkdə davam edirlər. "Çərşənbə axşamı Azərbaycan Prezidenti daha 22 yaşayış məntəqəsinin Azərbaycan ordusunun nəzarətinə keçdiyini açıqladı. Bir gün əvvəl də bu ölkənin başçısı Zəngilan şəhərinin ələ keçirildiyini elan edib. Kommersant müxbiri həm qonaqların, həm də Cənab Əliyevin xalqa televiziya müraciətini dinləyən Bakı kafelərindən birinin ofisiantlarının necə ayağa qalxdığını və alqışlamağa başladıqlarının şahidi olub. Dağlıq Qarabağdakı münaqişə barədə bilməli olduğunuz məsələlər var.

Zəngilan bölgəsi birbaşa Ermənistanın dövlət sərhədinə gedir və Azərbaycan qoşunlarının oraya çatmasına cəmi 10 km qalır. Lakin onların daha vacib hədəfi Qarabağı Ermənistanla birləşdirən iki əsas yoldan biri olan Laçın Dəhlizidir. Dəhliz üzərində nəzarət praktik olaraq Şuşanın, sonra isə tanınmamış bu qondarma respublikanın paytaxtı olan Xankındinin tutulmasını təmin edir. Azərbaycan qoşunları artıq Laçına doğru irəliləməyə başlayıb", deyə sözügedən mətbuat səhifəsində qeyd edilib. Həmin mətbuat səhifəsində bildirilir ki, bu irəliləyişə, hadisələrin bu şəkildə inkişafına cavab olaraq, Ermənistan baş naziri Nikol Paşinyan hər bir şəhərin ayrılıqda rəhbərliyi tərəfindən qurulacaq könüllülər qruplarının yaradıldığını elan edib. "Nə olmasından asılı olmayaraq, mübarizə aparmalıyıq", deyə Paşinyanın öz Facebook səhifəsində canlı yayımda bildirdiyi həmin media orqanında qeyd olunub.

Bu mətbuat səhifəsi erməni politoloq Hrant Mikaelyanın "Kommersant" a verdiyi müsahibəsindən də sitat gətirir və bu zaman onun dediyi kimi, İrəvanın diplomatik səyləri və beynəlxalq vasitəçilərin atəşkəs çağırışlarının təsirli olacağı ehtimalının olmadığını da bildirir.

***İnam Hacıyev***

# Araik Arutyunyan kömək üçün yenə yalvardı...



Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatların dayandırılması üçün əlinizdən gələni etməyinizi xahiş edirəm. SİA Ermənistana məxsus aysor.am saytının yayımladığı məlumata istinadən xəbər verir ki, bu sözləri qondarma Dağlıq Qarabağ respublikasının əldəqayırma rəhbəri Arayik Arutyunyan Vladimir Putinə müraciətində yazıb və bunu öz Facebook səhifəsində paylaşıb.

Məlumatda qeyd olunur ki, Araik Arutyunyan öz müraciətində əvvəlcə xalqlar arasında dostluq barədə fikirlər səsləndirib. Qondarma rejim rəhbəri Sovetlər dövründə Dağlıq Qarabağda yaşayan ermənilərin guya bu ölkə üçün fədakarlıq etdiklərini öz müraciətində xatırlatmaqla Rusiya prezidentinin qərarlarına təsir etməyə çalışıb. Hətta Rusiya prezidentinə məhz bu vaxta qədər onlara çox köməkliklər göstərdiyini də bildirərək yaltaqlıq etməkdən də çəkinməyib Araik Arutyunyan öz müraciətində.

Sonda qondarma rejim rəhbəri Dağlıq Qarabağda hərbi əməliyyatların dayandırılması üçün Rusiya prezidenti Vladimir Putinə əlindən gələni etməsini yalvararaq xahiş edib. "Dünyada və bölgəmizdə böyük şəxsi nüfuza sahib bir şəxs və lidersiniz. Sizdən xahiş edirəm ki, Azərbaycan-Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatları dayandırmaq və siyasi prosesləri bərpa etmək üçün mümkün olan hər şeyi edin ", deyə qondarma Daqğlıq Qarabağ respublikası prezidenti Facebook səhifəsində yazıb.

*İşğalçı ölkədə, elə bu işğalçılıq sıyasəti səbəbi ilə gənclərin, ələlxüsus 18-20 yaşlı yeniyetmələrin ölümünə görə dəli olmaq dərəcəsindəki əsgər analarının matəm əhval-ruhiyyəsi hökm sürür. Özü də haqlı olaraq. Gec də olsa dərk edirlər ki, axı balalarının özgə torpaqlarında nə işi var idi? Bu qədər gənci, yeniyetməni qırğına vermək hansı amal uğrundadır? Hansısa utopik ideyaların, dırnaqarası "Böyük Ermənistan" adlı xülyalarının, daha doğrusu xəstə təxəyyülün əsrlərdir ki, hay mənsublu gənclər, orta və yaşlı nəsillər qurbanına çevrilib.*

# Ermənistan daxili qisas, intiqam kolizeyinə çevrilib

Nikol Paşinyan kimiləri də, onun arvadının, qızının timsalındakı yaxın ətrafı da bu xəstə təxəyyüldən sui istifadə edərək biri hakimiyyətini qoruyur, digərləri də heç vaxt görmədiyi günləri görür və hər biri məhz bu baxımdan həmin axmaq, xəstə təxəyyülün hələ çox dövriyyədə qalmasına maraqlıdırlar. Əks halda, bu qədər məğlubiyyətin, hərbçi kimi formalaşmış erməni əsgərlərinin tamamilə qırılıb yoxa çıxması fonunda Ermənistan hakimiyyəti tamamilə naşı, hərbi məsələlərdən, silahla davranmaqdan belə məlumatsız kantingentə müraciət edib son nəfərinə qədər qırğına verməyə qalxmazdı.

Bu müharibəyə niyə və necə girildiyi, buraxılan səhvlər, ümumiyyətlə səhv yürüdülmüş işğalçılıq siyasəti, verilən qurbanlar, yeniyetmələrin, indi də bütün hay əsillilərin qırdırılması hesabat tələb edən məsələlərdir və Ermənistanın nəinki indiki, elə bütün dövlər ərzindəki hakimiyyətləri bu cavabdehliyi daşıyır, məsuliyyətdən də boyun qaçıra bilməyəcək. Hesab gününə qədər əcəlləri ilə ölsələr belə ruhları lənətə tuş gəlmiş olacaq. Qəsb, işğal, qarət yolu ilə torpaq ələ keçirib "vətən" adlandırmaq kimi anormal düşüncə, qüsurlu baxış bəzən hay əsilli axcilərin belə hiddətinə tuş gəlir və balaları mənasız yerə qırğına verilənlərin əlindəcə bu xəstə təxəyyüllülər və bundan istifadə edən paşinyankimilər didilib parçalanacaq.

Hazırda Ermənistan hökumətində açıq şəkildə narahatlıqlar, həyəcan, qorxu və hətta stres hiss olunur. Heç şübhəsiz ki, bu əbəs yerə deyil. Çünki, həmişəkindən fərqli olaraq bu dəfə erməni "başbilənləri" yeni torpaq ələ keçirib, vətən adlandırdıqları özgə torpaqlarında məskunlaşma ərazilərini böyütdüklərini elan edə bilmirlər. Bu arzuların da onların ürəyində qoyan, çirkin niyyətlərini reallaşmağa qoymayan şanlı Azərbaycan Ordusu, əsgər və zabitlərimiz, vətənimizin şərəfli, cəsur oğullarıdır. Azğınlaşmış, qudurmuş işğalçı tərəfə öz yeri bizim tərəfimizdən göstərildi və bildirildi ki, onların pozulmuş psixologiyalarına, beyinlərinə yeridilən həmin o utopik ölkə, "Yekəpər Ermənistan" onların sonunu gətirib.

Nikolun hakimiyyət çevrilişi ilə hakimiyyəti qamarladığı andan bu günə dəqər ancaq repressiya, hədə, intiqam strategiyası ortadadır və başqa bircə dənə də mahiyyət görünmür. İndi onun ətrafındakılar həmin strategiyaya aid ritorika ilə danışır. Bəzən hədə də kəsilir ki, guya müharibədən sonra kimlərə isə, nə isə tətbiq olunacaq. Məsələn, ilk tərcümeyi-halı, "karyerası" 2018-ci ilin aprelindən, yəni elə küçə nümayişçisinin hay-küyü ilə eyni dövrdən başlayan, hakim "Mənim addımım" partiyasından olan millət vəkili Kristina Paqosyan "fəaliyyət müstəvisinə" uyğun şəkildə küçənin asfalt döşəməsinə uzanaraq aqressiv şəkildə onlara qoşulmayan hər kəsə, eləcə də jurnalistlərə hədə kəsirsə, "gözləsəniz, müharibədən sonra melodiyanızı görəcəksiniz", deyə barmaq silkələyirsə, bu ölkənin hakim dairəsinin mahiyyəti bəllidir. Amma sözarası nəzərlərinə çatdıraq ki, onların buna imkanı, şansı olmayacaq, çünki, cəbhə xəttində hər birinin taleyini Azərbaycan Ordusu, əsgərlərimiz təyin edir.



Məsələ burasındadır ki, intiqam hissi, qisas susuzluğu yalnız Nikol Paşinyanın komandasında deyil, ailəsində də var. Paşinyanın "hiperaktiv" qızı Məryəm Paşinyan bu mənada özünü, öz hislərini ən aktiv şəkildə biruzə verir. "Bizə dəstək olan insanları da, dəstək verməyən insanları da heç vaxt unutmayacağıq", deyən bu qız birbaşa hədə kəsir, atasının qisas planlarını da gizlətmir və özünün də bu hiss ilə yaşadığını ortaya qoyur. İndi erməni cəmiyyətində atası ilə yanaşı bu qıza da antipatiya var, onun silah əlində selfi çəkdirib son erməni dığasını ölümə səsləyən və sürükləyən anasına da. Bu antipatiyanın fonunda sual olunur ki, niyə bu qızın atası istər diplomatik, istərsə də hərbi müstəvidə Azərbaycana uduzur? Ermənistan ictimaiyyəti hakim dairənin, Paşinyan rejiminin, komandasının məğlubiyyəti fonunda daxili auditoriyanın belə hədə ilə hədəfə alınmasını çox nifrət hissi ilə qarşılayır. Çox güman ki, Nikol Paşinyan özü də daxili auditoriyaya nifrət, qisas hissi səbəbindən öz vətəndaşlarını qırğına sürükləyir və bu onun son şansı hesab oluna bilər. Artıq Ermənistan daxili qisas, intiqam kolizeyinə çevrilib. Çünki, Azərbaycan Ordusunun ona başqa bir fürsət verməyəcəyini, Azərbaycanın qələbəsi ilə müharibə bitdikdən sonra qisası məhz ermənilərin özləri Paşinyandan, onun komandasından alacağını yaxşı başa düşür.

***İnam Hacıyev***

## Anar Xəlilov: "Cinayətin bir başa günahkarı Ermənistanın baş naziri Nikol Paşinyandır"



"Ermənilərin Azərbaycan ordusunun əks hücum əməliyyatı qarşısında məğlubiyyəti artıq qaçılmazdır. Bunu bütün dünya eləcədə də ermənilər özləri də dərk edir. Artıq işğaldan üç rayon mərkəzimiz və yüzlərlə qəsəbə, kəndlərimiz azad edilib. Hər gün Ali baş komandan yeni azad olunan yaşayış məskənlərinin haqqında məlumat verir. Düşmənin demək olar ki, 90 faiz hərbi texnikası sıradan çıxarılıb və ya qənimət götürülüb. Ermənistan ordusu dağınıq başı pozuq dəstə halına çevrilib". Bunu "Səs" qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.

Onun sözlərinə görə, döyüş meydanında Azərbaycan əsgərlərinə məğlub olan ermənilər öz xislətlərinə uyğun olaraq həmişə olduğu kimi dinc insanlarla döyüşür və onları qətlə yetirirlər: "Onlar dinc Azərbaycan şəhərlərini raket atəşinə tuturlar. Ermənilərin bu addımı bütün Beynəlxalq konvensiyalara ziddir və hərbi cinayət hesab olunur. Azərbaycan Respublikasının Baş Prokurorluğu bu əməllərə qarşı artıq cinayət işləri açmışdır. Bir mənalı şəkildə vətəndaş cəmiyyəti nümayəndəsi olaraq bəyan edirəm ki, bu cinayətin bir başa günahkarı Ermənistanın baş naziri Nikol Paşinyandır. Həmçinin separatçı oyuncaq qurumun rəhbəri Araik Arutunyan, onun hərbi cinayətkar ətrafıdır. Bu şəxslərin hər biri tutularaq Beynəlxalq hüquq normaları çərçivəsində mühakimə olunmalıdırlar".

Anar Xəlilov əminliyini ifadə edərək bildirdi ki, tezliklə qələbə qazanaraq torpaqlarımızı işğaldan azad edəcəyik: "Bütün erməni hərbi-siyasi cinayətkarlar ya döyüş meydanında məhv ediləcək ya da tutularaq mühakimə ediləcəklər. İrəvanda əyləşən başda Paşinyan olmaqla digər cinayətkarları isə faciələrini dərk edəcək erməni cəmiyyətinin özü mühakimə edəcəkdir. Ali Baş komandanımızın qətiyyəti, siyasi iradəsi və yüksək sərkərdəlik qabiliyyəti nəticəsində ordumuz bütün işğal olunmuş torpaqlarımızı azad edəcək və şəhidlərimizin qisası alınacaqdır. Cinayətkar faşist ideologiyasına xidmət edən hərbiləşmiş erməni siyasətçiləri və terroristləri isə öz cəzalarını mütləq alacaqlar. Bu cəzanı Azərbaycan xalqı ilə yanaşı, uzun illərdi xəstə ideologiyaları ilə məhvə apardıqları Ermənistan cəmiyyətinin özü də verəcəkdir. Əslində bu gün Azərbaycan ordusu təkcə öz torpaqların işğaldan azad etmir eyni zamanda erməni cəmiyyətini də bu murdar faşist xuntasından xilas edir. Zaman gələcək bunu dərk edən erməni cəmiyyəti daim Azərbaycan xalqına minnətdar olacaqdır".

***Gülyana***

## "Nar" şəbəkəsi işğaldan azad olunmuş ərazilərdə!

"Nar" səyyar baza stansiyaları vasitəsilə işğaldan azad edilmiş əraziləri mobil rabitə ilə təmin edir. Mobil operator işğaldan azad edilmiş rayonlarımızda müasir şəbəkə infrastrukturunun daxili layihələndirmə işlərini tamamlayıb. Müvafiq dövlət qurumları ilə razılaşdırmadan sonra bu ərazilərdə LTE-A texnologiyasına əsaslanan daimi şəbəkə infrastrukturunun quraşdırılması işlərinə başlanılacaq.

Bundan başqa, "Nar" cəbhəyanı bölgələrdə yaşayan istifadəçilərini kəsintisiz rabitə ilə təmin etmək üçün mövcud baza stansiyalarının tutumunu mütəmadi olaraq genişləndirir və 24/7 rejimində şəbəkə üzrə monitorinq və optimizasiya işlərini həyata keçirir. Şəbəkənin dayanıqlı fəaliyyətini təmin etmək üçün bu günədək cəbhəyanı ərazilərə müxtəlif sahələr üzrə 27 mühəndis ezam olunub.

Qeyd edək ki, "Nar" düşmən atəşinə məruz qalmış regionlarda yaşayan abunəçilərin yaxınları ilə rahat əlaqə qura bilməsi üçün balanslarına 100 ölkədaxili dəqiqə və 100 SMS yükləyib, həmçinin cəbhəyanı bölgələrdə istifadəçilərə minlərlə "Nar" ödəmə kartları paylanılıb. "Nar" sosial öhdəliyinə sadiq qalaraq, Azərbaycanın ərazi bütövlüyü uğrunda davam edən hərbi əməliyyatlar dövründə əhaliyə öz dəstəyini davam etdirəcək. Müzəffər Azərbaycan Ordusunun gücü sayəsində bu döyüşü qələbə ilə başa vuracağımıza, işğal altında olan torpaqlarımızın tam azad ediləcəyinə əminik. Qələbə bizimdir!

## Azərbaycanda daha 803 yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına 803 yeni yoluxma faktı qeydə alınıb, daha 212 nəfər sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 48 min 221 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 40 min 831 nəfər müalicə olunaraq sağalıb, 656 nəfər vəfat edib. Aktiv xəstə sayı 6734 nəfərdir. Ötən müddət ərzində 1 milyon 270 min 144 test aparılıb. Bugünkü test sayı isə 9951-dir.

# Azərbaycan dünya birliyini belə xilas etdi

**III Yazı**

Dağılmaqda olan dünya birliyi, nüfuzunu itirmiş BMT, ATƏT kimi beynəlxalq təşkilatlar Azərbaycanın sayəsində öz mövqelərini qaytara, dünya sürükləndiyi fəlakətdən qurtula bilər. Necəmi? Bu yazıda izah edəcəyik.

(Əvvəli burada)

**1-ci yazı - https://sia.az/az/news/politics/833362.html**

**2-ci yazı - https://sia.az/az/news/politics/833599.html**

Əvvəlki hissələrdə Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı BMT-nin məlum və məşhur 4 qətnaməsinin 3-ü haqda danışmış və bu qətnamələrin nəyə səbəb olduğunu göstərmişik. Bu hissədə sonuncu 4-cü qətnamə öncəsi və sonrası vəziyyəti təhlil edəcək və mövzunun əsas sualına tam cavab vermiş olacağıq.

## Fövqəldövlətlərdən fövqəlyardım alan Ermənistan

Demək, 3 qətnamənin hər birindən sonra daha da azğınlaşan Ermənistan hərbi üstünlüyündən istifadə edərək yeni-yeni rayonları işğal etməyə başlamışdı. Xüsusən də, BMT TŞ-nin 3-cü qətnaməsindən sonra təkcə Horadiz şəhərinin deyil, həm də Qarabağdan uzaqda, İran sərhəddində yerləşən Zəngilan rayonunun da işğalı Yerevanın dünya birliyinə və "şəxsən" BMT-yə açıq şəkildə "rədd ol" komandası vermək idi.

Bu arada Ermənistan ordusu üçün Amerika və Fransa tərəfindən əsasən Yaxın Şərqdən yığılmış yüzlərlə "nayomnikin" göndərildiyi, İrəvana maliyyə və hərbi yardımlar edildiyi də ortaya çıxdı. Buraya Ermənistanın keçmiş Sovet Ordusundan qalan çoxlu silah və texnikaya sahib olmasını da əlavə etsək, Azərbaycanın hansı şərtlərdə müharibə apardığı aydın olur.

Rusiya SSRİ-nin dağılmasından sonra xoasa və anarxiyaya sürükləndiyi bir vaxtda öz başının hayında olsa da, Ermənistan ondan da bəhrələnmək üçün hər şeyi edirdi. Öz ərazisində nəzarətsiz qalmış keçmiş Sovet hərbi bazalarının komandirlərindən pulla müxtəlif silah-texnika əldə edirdi. Rüşvətə bulaşmış həmin hərbi hissə komandanlıqları isə bu silah və texnikanın "spisat" olduğu, bəzilərinin isə Qarabağda erməni "ekstremistlər"i tərəfindən oğurlandığı və zəbt edildiyi haqda Moskvaya məlumat verirdilər. Yeri gəlmişkən, Xankəndidəki 366-cı alayda da belə olmuşdu. Ermənilər tarixin ən qəddar genosid aktında bu hərbi hissədən aldıqları silah-texnikadan və onun erməni mənşəli hərbçilərindən də istifadə etmişdilər.

Ən dəhşətli də odur ki, bu dəhşətli soyqırımın həyata keçirildiyi ildə- 1992-ci ildə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək" Aktına qəbul edilən və Azərbaycana Amerikanın birbaşa dövlət yardımını qadağan edən düzəliş qəbul edilmişdi. Çox qəribə və gülməli idi ki, düzəlişin "Azərbaycan tərəfindən Dağlıq Qarabağın "işğalı" və Ermənistana qarşı blokadasını dayandırmaq məqsədilə" qəbul edildiyi qeyd olunurdu.

Beləliklə, SSRİ-nin dağılmasından sonra dünyada yeganə arbitr kimi qalmış və Şərq bloku ölkələrinin demokratiya və ədalət gözlədiyi ABŞ qonşu ölkəyə və xalqa qarşı açıq soyqırım həyata keçirən işğalçı Ermənistana yox, işğala və terrora məruz qalmış Azərbaycana qarşı sanksiya tətbiq edir...

Üstəlik, nəinki Ermənistana öz dövlət büdcəsindən rəsmi yardımlar ayrır, hətta Qarabağdakı terrorçu rejimə də hər il öz dövlət büdcəsindən ayrıca yardımlar verir. Bu rəsmi yardımlar həm də Amerikadakı erməni lobbisinin qeyri-rəsmi xətlərlə etdiyi fasiləsiz yardımları ilə müşayiət olunur.

Fransa başda olmaqla Qərbi Avropa ölkələrindən də həm rəsmi, həm də qeyr-rəsmi kanallarla ciddi maliyyə yardımları və silahtexnika alan Ermənistan öz ordusunu daha da gücləndirmək imkanı əldə edir. Fransa həbsxanalarından azad edilmiş residivistlərin Qarabağa Ermənistan tərəfindən döyüşməyə göndərilməsi haqda faktlarla yanaşı, Fransa şirkətlərinin orada fəal işləməsi də Ermənistan üçün böyük dəstək idi.

Belə bir fonda dünyanın yeganə güc mərkəzi kimi qalmış NATO bloku dövlətlərinin də açıq siyasi, hərbi və iqtisadi dəstəyini alan Ermənistan işğalçılıq hərəkətlərini genişləndirməsi təəccüblü deyildi. Beləliklə, BMT TŞ-nin 3-cü qətnaməsindən sonra daha 2 şəhəri və onlarla kəndi işğal edən Ermənistana qarşı yenə də heç bir ciddi tədbir görülmür, sadəcə qətnaməbazlıq prosesi davam edir.

Artıq bu müharibənin qarşısını almaqda heç bir təsirə malik olmadığına və yalnız tövsiyyə xarakterli kağız-kuğuz yazmaqdan o yana keçə bilmədiyinə görə dünyada gülüş hədəfinə çevrilmiş olan BMT TŞ 4-cü və sonuncu qətnaməni elan edir- oxuyaq, görək orda nədən söhbət gedir.

## BMT TŞ-nin 4 qətnaməsinə tüpürən Ermənistan

11 noyabr 1993-cü il tarixdə Təhlükəsizlik Şurası özünün əvvəlki 3 qətnaməsini təsdiq edərək,... Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını təşviş qeyd edərək, Azərbaycan Respublikasının və regiondakı bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyini bir daha təsdiq edərək,..:

**1.** Tərəflərin qəbul etdiyi atəşkəsin bu yaxında hərbi əməliyyatların yenidən başlanmasına səbəb olmuş pozulmasını, o cümlədən Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını, dinc sakinlərə hücumları və Azərbaycan Respublikası ərazilərini atəşə tutmasını pisləyir;...

**4.** ... "Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli"nə əsasən hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasını, işğalçı qüvvələrin Zəngilan rayonundan və Horadiz şəhərindən birtərəfli surətdə çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxında işğal olunmuş rayonlarından qəsbkar qüvvələrin çıxarılmasını maraqlı tərəflərdən tələb edir;...

**6.** Yenidən təkidlə regionun bütün dövlətlərini münaqişənin böyüməsinə, regionda sülhü və təhlükəsizliyi poza biləcək hər hansı bir düşmənçilik aktından, hər hansı bir müdaxilədən çəkinməyə çağırır;

**7.** Baş katibdən və müvafiq beynəlxalq təsisatlardan zərər çəkmiş mülki əhaliyə, o cümlədən Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədlərinin əhalisinə təcili humanitar yardım göstərilməsini, qaçqınlara və məcburi köçkünlərə öz evlərinə ləyaqətlə və təhlükəyə məruz qalmadan qayıtmasına kömək etməyi xahiş edir;...

O məşhur kinoda ("Uzaq Sahillərdə" filmində) deyildiyi kimi, "yenə də həmin dalğa, həmin koordinat". Yenə də, eyni iclas zalı, eyni çağırışlar, eyni təəssüflər, eyni kağız qaralama prosesi... Ermənistan 4-cü qətnaməyə də tüpürür və bunu hərəkətləri ilə açıq bəyan edir.

Müharibə isə davam edir. İşğalın miqyası genişlənir, qaçqın və köçkünlər ordusuna yeni yüz minlər əlavə olunur, çadır şəhərciklərində yerləşdirilmiş yarım milyonluq günahsız insanlar "ordusunun" yükünü təkbaşına çəkməkdə olan Azərbaycan dövlətinə beynəlxalq humantir təşkilatlar bir qədər yardımda bulunur.

Yarım il də keçir və 94-ün mayında atəşkəs əldə olunur. Buna qədər BMT artıq qətnamələrin bir işə yaramadığını və bütün dünyanın bunu lağa qoymasından sonra yeni qətnamə qəbul etməyi dayandırır və prosesi ATƏT-in Minsk qrupu adlı mənasız və səlahiyyətsiz qrupun üzərinə ataraq gedir işinin dalınca...

## Azərbaycan dünya birliyini və BMT-ni belə xilas etdi

Beləliklə, Ermənistanın Azərbaycana qarşı 5 il ərzində apardığı işğal, soyqırım və terror kampaniyası nəticəsində 12 rayon işğal olunur, 1 milyon azərbaycanlı öz tarixi torpaqlarından qaçqın-köçkün düşür, 20 min nəfər azərbaycanlı öldürülür, 50 min nəfər şikəst qalır, on minlərlə insan xəstəliklərdən və yaralardan sonrakı illərdə həlak olur, yüz minlərlə insan qaçqın şəhərciklərində uzun illər sərt qışı və qaynar yayı keçirməyə məhkum olur, Azərbaycan (indiki qiymətləndirmə ilə) 300 milyard dollarlıq iqtisadi zərərə məruz qalır...

Dünya birliyi isə yalnız bəzi qaçqın şəhərciklərinə dava dərman və ərzaq göndərməklə işini bitmiş hesab edir.

Çox uzun illər keçir. Azərbaycan Prezidenti və hökuməti bu müddət ərzində mümkün olan bütün vasitələrlə problemi danışıqlar yolu ilə həll etməyə çalışır, ən yüksək güzəştlər elan edir, sülh üçün ən son imkanlardan da belə istifadə edir. Lakin həmin bu Minsk üçlüyü və Ermənistan danışıqları uzadaraq Azərbaycanı 20 faiz ərazisinin itirilməsi faktını rəsmi etiraf etmək məcburiyyətində qoymaq istəyir. "Münaqişənin hərbi həll yolu yoxdur" kimi absurd bəyanatlar verən bu üçlük, siyasi yolla da həllini təmin etmir...

Lakin nə xalq, nə də dövlət buna razılaşmır, səbrlə "o günü" gözləyir. Azərbaycan beynəlxalq hüququn heç bir işə yaramadığını görüb səbrlə iqtisadi və hərbi gücünü artırır, siyasi-diplomatik hərəkətlərlə özünün gözlənilən fəaliyyətinə qanuni zəmin olduğunu dünya birliyinə yeridir, Ermənistanın regionda bütün iqtisadi layihələrdən kənarda qalmasını və zəifləməsini təmin edir...

Artıq 2020-ci ilin payızıdır. Atəşkəsdən çox uzun müddət keçib- 25 ildən çox. Bu dövrdə 25 qlobal problemi həll etmək mümkün idi. Lakin "dünya birliyi" tərpənmir. Beynəlxalq hüquq işləmir. Bu halda yeganə çıxış yolu qalırdünyanın iradəsinin, yəni, BMT qətnamələrinin həyata keçirilməsini öz gücü ilə təmin etmək.

Ermənistan liderinin "Qarabağ Ermənistanındır" deyərək sülh üçün son şansı da birdəfəlik məhv edən son bəyanatları və Qarabağdakı hərəkətləri Bakının onsuz da ağzınacan dolmuş səbr kasasını daşırır...

Sentyabrın 27-də Ali Baş Komandanın əmri ilə əks-hücuma keçən Azərbaycan Silahlı Qüvvələri Qarabağda anti-terror əməliyyatlarına start verir, Ermənistan ordusunun işğal etdiyi yerlərdən qovulması prosesi başlayır. 1 ay keçməmiş Ermənistanın demək olar ki, bütün ordusu, hərbi arsenalı, həmçinin orada Ermənistan tərəfindən döyüşən PPK terror dəstələri tam darmadağın edilir. Fransa istisna olmaqla, bütün fövqəldövlətlər və beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini müdafiə edən bəyanatlar verir. Dünya güclə hesablaşmağa öyrəşib...

Bir az sonra Fransa lideri Makron da sərt ritorikasından geri çəkilir və reallıqla razılaşmağa məcbur olur. Artıq Ermənistan tam təklənmiş, müharibənin bütün cəbhələrində- siyasi-diplomatik, hərbi-döyüş, informasiya və təbliğat cəbhələrində məğlubiyyətə uğramış vəziyyətdədir. Uzun illərdir ki, davam edən iqtisadi böhranın kulminasiyası, sosial fəlakətin astanasına gətirilmiş erməni xalqı, darmadağın edilmiş ordu, itirilmiş beynəlxalq mövqelər...

Artıq proses sona yaxınlaşır, kapitulyasiya üçün bütün şərtlər hazırdır. Qalır təslim olmaq və onu imzalamaq. Epoxa bitmişdir...

YEKUN: Azərbaycan işğal edilmiş Qarabağı güc yolu ilə geri qaytarmaqla təkcə özünün problemini həll etmir, həm də dağılmaqda olan dünya birliyini xilas etmiş olur. BMT-nin, ATƏT-in qətnamələrinin yerinə yetirilməsini təmin etməklə dünya ictimaiyyətində rəğbət qazanır, beynəlxaq arenada öz nüfuzunu artırır.

Ümumilli lider uzun illər qabaq "Azərbaycan dünyaya Günəş kimi doğacaq" dedikdə çoxları bu sözlərin adi bir şüar olduğunu düşünmüşdü. Lakin ay dolandı, il keçdi... və Azərbaycan dünyaya Günəş kimi doğdu. Dağılmaqda olan dünya birliyini xilas edərək...

**Son**

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

24 oktyabr

## 80 yaşlı "Futbol kralı"



*Əfsanəvi braziliyalı futbolçu, üçqat dünya çempionu Pelenin 80 yaşı tamam olub. Pele futbolçu kimi üç dəfə (1958, 1962, 1970) dünya kubokunu qazanan yeganə futbolçudur. Eyni zamanda o, 1958-ci ildə dünya çempionatının ən yaxşı gənc futbolçusu və 1970-ci ildə mundialın ən yaxşı oyunçusu seçilib.*

Pele həmçinin, Qitələrarası kubokun və Libertadores kubokunun qalibi, Qitələrarası Çempionlar Supekubokunun qalibidir. "Futbol kralı" karyerası ərzində "Santos və "Nyu-York Kosmos" komandalarında çıxış edib. Pele Braziliya millisində 92 oyuna 77 qol vurub. O, karyerası ərzində isə ümumilikdə 1363 görüşdə 1289 qol vurub.

## Pike "Barselona" rəhbərliyini "bombaladı": "Rüsvayçılıqdır"



***"Barselona"nın futbolçusu Jerar Pike Kataloniya klubunun rəhbərliyi və kapitan Lionel Messi haqqında danışıb. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, 33 yaşlı müdafiəçi klub prezidenti Xosep Bartomeunun meneceri Xaime Masferrerin sosial şəbəkələrdə komandanın əfsanəvi futbolçularını tənqid edən hesablarının üzə çıxmasını sərt şəkildə pisləyib: "Klubun bizi tənqid etmək üçün pul xərcləməsi rüsvayçılıqdır. Üstəlik bu işin içində olan birinin hələ də "Barselona"da işləməsi təəssüf doğurur".***

**İspaniyalı oyunçu kapitan Lionel Messinin komandada qalıb-qalmayacağı ilə bağlı sualı cavablandırarkən növbəti dəfə klub rəhbəliyini tənqid edib: "Leo klubdan ayrılmaq istəyəndə ona dözməsini məsləhət gördüm. "Nou Kamp"a Messinin adı verilməlidir. O, hər şey edir. Düşünün, tarixin ən yaxşı futbolçusu klub rəhbərliyinin onu dinləmədiyi üçün seçim etmək məcburiyyətində qalır. Bu, həqiqətən də şoka salan bir hadisədir. Qvardiola, Xavi, Puyol kimi insanların klubda olmamağı məni çox təəccübləndirir. Onları fərqli vəzifələrdə olsa belə, klubda saxlamaq lazım idi. Həmin insanlar "Barselona"nın tarixi deməkdir".**

**Pike "Barselona" rəhbərliyinin futbolçulardan maaşlarında kluba güzəşt olunmasını da düzgün şəkildə istəmədiyini vurğulayıb: "Mən buna rəğmən müqaviləmi yenilədim. Çünki əlimdə olan hər şeyi "Barselona"ya borcluyam. Amma rəhbərliyin bu dövrdəki münasibəti çox səhv idi".**

**Qeyd edək ki, "Barselona"nın oyunçularından yalnız Pike, Mark-Andre ter Ştegen, Frenki de Yonq və Kleman Lanqle koronavirus pandemiyasının büdcədə yaratdığı probemlərə görə məvaciblərində güzəştə getməyə razı olublar.**

## Yeni texnologiyalar 85 milyon iş yerini ixtisar edəcək



Texnoloji tərəqqi nəticəsində avtomatlaşdırma səbəbindən 2025-ci ilədək 15 iqtisadiyyat sahəsində 85 milyon iş yeri ixtisar oluna bilər. Bu barədə Dünya İqtisadi Forumunun hesabatında deyilir. Ekspertlərin fikrincə, "robotlar inqilabı" 97 milyon yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq. Ümumilikdə gələcəkdə əvvəlki illərdən fərqli olaraq yeni vəzifələrin yaranması mövcud olanların yoxa çıxmasından daha zəif baş verəcək.

Forumun ekspertlərinin qiymətləndirməsinə görə, 2025-ci ilədək insan və kompüterlər arasında iş yarıya bölünəcək. Bununla yanaşı, avtomatlaşdırma məlumatların daxil edilməsi və emalı, mühasibat uçotu, bir sıra inzibati vəzifələr kimi fəaliyyət növlərinə şamil ediləcək.

Dünya İqtisadi Forumunun ekspertləri tərəfindən keçirilən sorğuya görə, biznes nümayəndələrinin 43 faizi yeni texnologiyaların tətbiqi səbəbindən iş yerlərini ixtisar etmək niyyətindədir. İşəgötürənlərin 41 faizi bir sıra iş növlərinin yerinə yetirilməsi üçün podratçıların şəbəkəsini genişləndirməyi, 34 faizi isə yeni texnologiyaların inteqrasiyası üçün tələb olunan yeni işçi qüvvəsini cəlb etməyi planlaşdırır.

"Avtomatlaşdırmanın sürətləndirilməsi və koronavirus pandemiyası ilə bağlı tənəzzülün nəticələri əmək bazarlarında mövcud tənasübsüzlüyü dərinləşdirib və 2007-2008-ci illər qlobal iqtisadi böhranından sonra nail olunan işsizlik səviyyəsinin azaldılmasını sıfıra endirib", - deyə Dünya İqtisadi Forumunun idarəedici direktoru Səədiyə Zahidi bildirib.

## İspaniya sahillərində üzən otel



İspaniya sahillərində, Aralıq dənizində üzən otel - "Punta de Mar" gələcək turizmin bir nümunəsi sayılır. Xarici KİV-lərin yaydığı xəbərdə deyilir ki, "Mano De Santo" arxitektura studiyasının layihəsi ilə hazırlanan 2 nəfərlik üzən otelin sahəsi 74 kvadratmetrdir. Sahəsi 40 kvadratmetr olan 1-ci yarusda otaq yerləşir. Digər 34 kvadratmetr zona isə relaksasiya üçün nəzərdə tutulub. Hər 2 yarus akustik sistemlərlə təchiz edilib.

Onun hazırlanmasında ətraf mühitə az ziyan vuran ekoloji materiallardan istifadə olunub. Bundan başqa, otelin kiçikhəcmli olması onu çətinlik çəkmədən sudan quruya çıxarmağa imkan verir.

## İki cüdoçumuz "Böyük dəbilqə" turnirinin dörddəbir final mərhələsinə vəsiqə qazanıb




*Oktyabrın 23-də Macarıstanın paytaxtı Budapeştdə südo üzrə "Böyük dəbilqə" turniri start götürüb. AZƏRTAC xəbər verir ki, yarışların ilk günü 7 cüdoçumuz mübarizə aparır. Cüdoçularımızdan Orxan Səfərov (66 kq) niderlandlı İvo Verhorstert və gürcüstanlı Baqrati Naniaşvilini məğlub edərək dörddəbir finala çıxıb. Bu mərhələdə o, monqolustanlı Erhembayar Battoqtoh ilə döyüşəcək.*

Bu mərhələyə daha bir cüdoçumuz vəsiqə qazanıb. Belə ki, qadınlar arasında keçirilən yarışlarda 52 kiloqram çəki dərəcəsində mübarizə aparan Gültac Məmmədəliyeva ilk görüşdə Qal-Od Tserentoqxod (Monqolustan), daha sonra isə israilli Qefen Primonu məğlub edib. Dörddəbir finalda onun rəqibi isveçrəli Fabyen Koçer olacaq. Qeyd edək ki, 80 ölkədən 624 cüdoçunun qatılacağı turnirdə idmançılar Tokio Olimpiadasına reytinq xalları da qazanacaqlar.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**